QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 171 (5891) **19 sentyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# 25 il - "Əsrin müqaviləsi"ndən "XXI Əsrin müqaviləsi"nə doğru

*Prezident İlham Əliyev: "Azərbaycanın əsas hədəfi neft gəlirlərini insan kapitalına çevirmək olub və bu məqsədə nail olunub"*



Səh 3

5

YAP İcra Katibliyində "Əsrin müqaviləsi" - Azərbaycanın yüksəlişinin möhtəşəm təməli" mövzusunda dəyirmi masa keçirilib



6

YAP-ın Ağdam və Bərdə rayonlarından olan fəalları ilə görüş keçirilib



7

"Bunların hamısı qəti şəkildə yalandır"



# "Bizim siyasi qarşılıqlı fəaliyyətimizin səviyyəsi çox yüksəkdir"

*Prezident İlham Əliyev Belarus Təhlükəsizlik Şurasının dövlət katibinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev dedi:***

-Xoş gəlmisiniz. Sizi yenidən görməyimə şadam. Siz artıq ilk dəfə deyil ki, bizim ölkəmizə gəlirsiniz. Sizin hər səfəriniz qarşılıqlı maraq doğuran məsələlər haqqında danışmaq üçün yaxşı imkandır. Münasibətlərimizin xarakteri və ruhu haqqında danışmağa ehtiyac yoxdur. Biz onları çox yüksək qiymətləndiririk. Onlar dostluğa, qarşılıqlı anlaşmaya, qarşılıqlı dəstəyə əsaslanır. Əminəm ki, sizin bu səfəriniz də münasibətlərimizin gələcək inkişafına töhfə verəcək.

Bizim siyasi qarşılıqlı fəaliyyətimizin səviyyəsi çox yüksəkdir. Deməli olar ki, dövlət başçılarının, digər rəsmi şəxslərin müntəzəm səfərləri, ticari-iqtisadi sahədə yaxşı irəliləmələr, birgə layihələr, birgə istehsal, təhlükəsizlik sahəsində, o cümlədən hərbi-texniki sahədə əməkdaşlıq mövcuddur. Belə ki, münasibətlərimiz dərin məzmunla zəngindir və nəticəyə yönəlib. Bir də demək istərdim, münasibətlərimizin fərqli xüsusiyyəti ondadır ki, biz qərar qəbul edirik, qərarların həlli yollarını müəyyənləşdiririk və nəticəsini görürük. Düşünürəm ki, bu müsbət dinamika gələcəkdə də saxlanılacaq, münasibətlər uğurla inkişaf etdiriləcək, ölkələrimizə və xalqlarımıza fayda gətirəcək. Sizi bir daha Azərbaycanda salamlayıram.

Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas:

-Sağ olun, hörmətli cənab Prezident, hörmətli İlham Heydər oğlu. Bugünkü görüşə görə sağ olun. Sizinlə görüşmək, söhbət etmək mənim üçün böyük şərəfdir. Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Mehriban Əliyeva: "Hər iki dahi şəxsiyyətimizin - Üzeyir Hacıbəylinin və Müslüm Maqomayevin xatirəsini dərin ehtiramla yad edirik"



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Milli Musiqi Günü ilə əlaqədar İnstaqram səhifəsində paylaşım edib. AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin paylaşımında deyilir: "Bu gün Milli Musiqi Günüdür. 1885-ci il sentyabrın 18-də Azərbaycan bəstəkarlıq məktəbinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəyli anadan olmuşdur. Onunla eyni ildə və eyni gündə Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, böyük bəstəkar Müslüm Maqomayev dünyaya gəlmişdir. Hər iki dahi şəxsiyyətimizin xatirəsini dərin ehtiramla yad edirik".

# Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Belarus Təhlükəsizlik Şurasının dövlət katibi ilə görüşüb



***Sentyabrın 18-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev ölkəmizdə səfərdə olan Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas ilə görüşüb. AZƏRTAC xəbər verir ki, müstəqillik illərində Azərbaycan-Belarus əlaqələrinin təməlinin 1994-cü ildə dövlət başçıları Heydər Əliyev və Aleksandr Lukaşenko tərəfindən qoyulduğunu xatırladan Ramiz Mehdiyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Belarus Prezidentinin qarşılıqlı səfərlərinin və görüşlərinin ikitərəfli münasibətlərimizin inkişafında xüsusi rol oynadığını vurğuladı.***

Söhbət zamanı Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri ilə Stanislav Zas arasında bundan əvvəl beynəlxalq tədbirlərdə keçirilən görüşlər məmnunluqla xatırlandı.

Görüşdə Administrasiya rəhbəri Ramiz Mehdiyev 2020-ci ilin yanvar ayından Stanislav Zasın yeni vəzifənin icrasına başlayacağını qeyd edərək, bu münasibətlə təbriklərini çatdırdı və həmin vəzifədə çalışacağı dövrdə də Azərbaycanla Belarus arasında dostluq əlaqələrinin inkişaf edəcəyinə əminliyini ifadə etdi. Administrasiya rəhbəri Ramiz Mehdiyev Belarus Respublikasının Təhlükəsizlik Şurası ilə bundan sonra da yaxın əməkdaşlığın davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

# 25 il - "Əsrin müqaviləsi"ndən "XXI Əsrin müqaviləsi"nə doğru

## *Prezident İlham Əliyev: "Azərbaycanın əsas hədəfi neft gəlirlərini insan kapitalına çevirmək olub və bu məqsədə nail olunub"*





***25 il öncə, Azərbaycan tərəfindən çox çətin bir geosiyasi dövrdə ölkəmizin üzləşdiyi təhlükələrin və risklərin fonunda Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi neft strategiyası əsasında beynəlxalq aparıcı şirkətlərlə "Əsrin müqaviləsi" imzalandı və Azərbaycan uğurlu enerji strategiyasının və enerji diplomatiyasının əsasını qoydu.***

"Əsrin müqaviləsi"nin imzalanmasından 23 il sonra, 14 sentyabrda ölkəmizin həyatında çox əlamətdar və tarixi gün - enerji diplomatiyasının əsasının qoyulduğu gün - yeni "Əsrin müqaviləsi"nin imzalandığı "Azəri-Çıraq-Günəşli" nəhəng neft yatağının işlənilməsində yeni dövrün başladığı gün oldu. Belə ki, "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadıldı. Bu saziş Azərbaycan üçün daha əlverişlidir, baxmayaraq ki, 1994-cü ildə imzalanmış saziş də ölkəmizin maraqlarını tam təmin edirdi. Bu dəfə isə, daha şərtlərlə növbəti "Yeni XXI Əsrin müqaviləsi" imzalandı. Bu sazişin "Yeni Əsrin müqaviləsi" adlandırılması da təsadüfi deyil. Azərbaycanın gələcək inkişafı, ölkənin maliyyə imkanlarının genişləndirilməsi üçün bu kontraktın çox böyük əhəmiyyəti var.

### "Biz müstəqil siyasət aparan, heç kimdən asılı olmayan ölkəyik"

Azərbaycan 1994-cü ildən iki dəfə sərfəli bir sazişin imzalanmasına nail oldu. Prezident İlham Əliyev Yeni sazişin imzalanması ilə bağlı keçirilən tədbirdə bildirmişdi ki, bu gün Azərbaycan üçün əlamətdar və tarixi bir gündür: "Azəri-Çıraq-Günəşli" ("AÇG") yataqlar blokunun işlənməsində yeni dövr başlayır".

Dövlət başçısı çıxışı zamanı müqavilənin ölkəmiz üçün böyük əhəmiyyəti olduğunu da demişdi: "Bu yataqların işlənməsi 2050-ci ilə qədər uzadılır. Bu kontrakt Azərbaycan üçün daha əlverişli, daha yaxşı şərtlərlə imzalanır. Kontrakt imzalanandan sonra ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar bonus ödəniləcək. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75% təşkil edəcək. "Əsrin müqaviləsi" imzalanan zaman "AÇG"-də 511 milyon ton neft olduğu ehtimal edilirdi. Ancaq ehtiyatlar proqnozları üstələdi. Hazırda "Azəri-Çıraq-Günəşli"də hasil edilməmiş 500 milyon ton neft var".

Dövlət başçısı "Əsrin müqaviləsi" imzalanan ərəfəyə də tarixi ekskurs edərək, həmin dövrdə bildirib ki, 1992-ci ildə AXC-Müsavat hakimiyyəti dövründə ölkədə anarxiya yaşanıb: "1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başlayıb. Bununla yanaşı, Ermənistan torpaqlarımızın böyük hissəsini işğal etmişdi. Belə ağır vəziyyətdə xalq Heydər Əliyevi dəvət etdi".

Ölkə başçısı onu da bildirib ki, o dövrdə xarici investorları cəlb etmək tarixi nailiyyət idi: "Bu, böyük məharət tələb edirdi. İndi Azərbaycan öz hesabına yaşayan ölkələrdəndir. Ölkəmizin gələcək inkişafı üçün siyasi, iqtisadi və ya başqa maneə yoxdur. Ölkəmiz bundan sonra uğurla inkişaf edəcək. Bu potensialın formalaşmasında "Əsrin müqaviləsi"nin böyük rolu var. Biz müstəqil siyasət aparan, heç kimdən asılı olmayan ölkəyik. Bu, iqtisadi imkanlarımızdan qaynaqlanır. Bu imkanı da bizə "Əsrin müqaviləsi" yaratdı".

### "Neftin qiyməti bizi yolumuzdan döndərmədi"

Prezident İlham Əliyev çıxışında xatırladıb ki, 2012-ci ildə Türkiyədə "TANAP" layihəsinə imza atıldı. 2013-cü ildə isə "TAP" layihəsi qaz kəməri kimi seçilib. Dövlət başçısı onu qeyd etdi ki, "Səngəçal" dünyada ən böyük neft-qaz terminalıdır: "Azərbaycanda neft platformaları tikilir. Bunlar "Əsrin müqaviləsi"nin Azərbaycana verdiyi faydalardır. Dövlət Neft Fondu bizim üçün böyük bir amildir. Neftin qiymətinin düşməsi də bizi yolumuzdan döndərə bilmədi. Biz valyuta ehtiyatlarımızı artırırıq. "Şahdəniz" və "Cənub Qaz Dəhlizi" layihəsinin həyata keçməsi ilə valyuta ehtiyatlarımız daha da artacaq".

Ardı Səh. 4

# 25 il - “Əsrin müqaviləsi”ndən “XXI Əsrin müqaviləsi”nə doğru

## *Prezident İlham Əliyev: “Azərbaycanın əsas hədəfi neft gəlirlərini insan kapitalına çevirmək olub və bu məqsədə nail olunub”*



Əvvəli-Səh-3

Yuxarıda vurğulanan bütün məqamlar, onu təsdiq edir ki, Azərbaycan rəhbərliyi 25 il ərzində enerji layihələrindən əldə edilən gəlirləri, əsas olaraq, Azərbaycanın sosial-mədəni, intellektual, mənəvi, iqtisadi və ekoloji inkişafına sərf edib. Onların hamısının kökündə “Əsrin müqaviləsi” dayanır! Bu, müasir mərhələdə müstəqil dövlət quruculuğunun ən səmərəli yoludur. Azərbaycan təcrübəsi bunu tam təsdiqləyir. Çox vacib məqamdır ki, ölkə rəhbərliyi həmin istiqamətdə prinsipial əhəmiyyətli yeni bir addım atıb.Onu da vurğulamaq lazımdır ki, “Yeni Əsrin müqaviləsi” saziş, şübhəsiz ki, 1994-cü ildə imzalanmış müqavilənin yalnız zaman baxımından deyil, həm də geosiyasi, iqtisadi, mədəni və siyasi aspektdə davamıdır. Ölkə başçısı yeni sazişin imzalanması mərasimində söylədiyi nitqində bunu xüsusi ifadə edib. Yuxarıda təsvir edilən faktlardan da görünür ki, 1994-cü il müqaviləsi strateji məzmun kəsb edib. İndi imzalanan müqavilə də, məhz bu prizmadan olduqca vacib hadisədir.

Yeni sazişin imzalanmasından bir neçə gün əvvəl, bir sıra Avropa ölkələrinin KİV-ləri və qeyri-hökumət təşkilatları Azərbaycana qarşı çirkin təbliğat kampaniyasına başladılar. O zaman ekspertlər buna, belə qiymət verdilər ki, (o cümlədən, “Newtimes.az” portalının analitik yazılarında bu ayrıca vurğulanırdı - red.) bu kimi qarayaxma kampaniyası, adətən, Azərbaycanın hansısa əhəmiyyətli addımı ərəfəsində konkret dairələr tərəfindən aparılır. Məsələn, 1994-cü ildə “Əsrin müqaviləsi”nə mane olmaq üçün çox dəhşətli hadisələr törədildi. Dövlət adamlarına qarşı sui-qəsdlər planlaşdırıldı. Hətta o zaman ölkəyə rəhbərlik edən Ulu Öndər Heydər Əliyevə sui-qəsd etməyə cəhd göstərildi. Sonra “Avroviziya” Mahnı Müsabiqəsi ərəfəsində Azərbaycana qarşı olduqca çirkin təbliğat kampaniyası aparıldı. Hətta bəzi qonşu ölkələrin jurnalistləri Bakıda etik normalara sığmayan hərəkətlər edərək, ölkəmizə qarşı qərəzli informasiyalar yaydılar.

İndi də eyni ssenari təkrarlanır. Lakin bu dəfə düşmənlər, 1994-cü ildə olduğu kimi, Azərbaycanda sui-qəsdlər və terror aktları təşkil edə bilmirlər. Yəni “Əsrin müqaviləsi”nin imzalanmasından sonra ölkəmiz bütün istiqamətlərdə sürətlə inkişaf edib və təhlükəsizliyini tam təmin edə bilir. Bu səbəbdən də, yeni enerji sazişinin imzalanması ərəfəsi müəyyən dairələr yalnız ideoloji kampaniya aparmağa çalışdılar, onun da qarşısını Prezident İlham Əliyevin müdrik addımları dərhal aldı.

“Əsrin müşqaviləsi” ilə bağlı dövlət və iqtisadçılar da bildirirlər ki, bu gün dünyanın hər yerində Azərbaycanda həyata keçirilən islahatlardan, uğurlu nailiyyətlərdən danışır və bu siyasətə həsəd aparırlar.

### Hikmət Hacıyev: “Əsrin müqaviləsi” imzalandı və Azərbaycan uğurlu enerji strategiyasının və enerji diplomatiyasının əsasını qoydu”

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində “Əsrin Müqaviləsi”nin imzalanmasının 25-ci ildönümü münasibətilə Azərbaycanda diplomatik korpuslar və ekspertlər üçün keçirilən seminarda Prezident Administrasiyası Xarici Məsələlər Şöbəsinin müdiri Hikmət Hacıyev “Əsrin Müqviləsi”nin imzalanmasının Azərbaycan Dövlətinin Müstəqilliyində oynadığı roldan danışıb: “25 il öncə, Azərbaycan tərəfindən çox çətin bir geosiyasi dövrdə ölkəmizin üzləşdiyi təhlükələrin və risklərin fonunda Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi neft strategiyası əsasında beynəlxalq aparıcı şirkətlərlə “Əsrin müqaviləsi” imzalandı və Azərbaycan uğurlu enerji strategiyasının və enerji diplomatiyasının əsasını qoydu”.



H.Hacıyev onu da bildirib ki, Azərbaycanın həyata keçirdiyi uğurlu enerji strategiyası ölkəmizin müstəqilliyinin, iqtisadi inkişafının təməli olmaqla bərabər, beynəlxalq və regional müstəvidə enerji təhlükəsizliyinə ciddi şəkildə töhfə verdi: “Azərbaycanın enerji strategiyasının vacib təməl prinsiplərindən biri onun şəffaf və uğurlu şəkildə idarə olunması mexanizmidir. Bu gün ölkəmizin enerji strategiyasının növbəti vacib bir təməl nöqtəsi var ki, Azərbaycan artıq qaz ixrac edən ölkədir. “TANAP” və “TAP” layihələri, artıq özünün icrasının son mərhələlərinə qədəm qoymaqdadır və biz də ümid edirik ki, tərəf-müqabillərimizlə birlikdə bu layihənin də tezliklə məntiqi sonuna çatdırılmasına nail olacağıq və Azərbaycan özünün qaz resursları ilə Avropanın enerji təhlükəsizliyinə öz böyük töhfəsini verəcək. Beynəlxalq enerji bazarında Azərbaycan etibarlı tərəfdaş kimi tanınır”.

### Tahir Rzayev: “Əsrin müqaviləsi” Azərbaycanı dünyaya tanıtdı və sürətlə inkişaf yoluna qədəm qoydu”

Milli Məclisin üzvü Tahir Rzayev hesab edir ki, neft gəlirləri olmasaydı, qeyri-neft sektorunu inkişaf etdirmək olmazdı, Azərbaycan milyardlarla vəsaiti kənardan axtarmalı olardı: “Əsrin müqaviləsi” Azərbaycanı dünyaya tanıtdı və sürətlə inkişaf yoluna qədəm qoydu. Ancaq neftə bel bağlamaq olmaz, biz qeyri-neft sektorunu da inkişaf etdirməliyik”.

Millət vəkili, onu dv vurğulayıb ki, deputat seçildiyi bölgədə də aqrar sahənin inkişafı ilə bağlı, bir neçə gündür ki, təbliğat aparır: “Kənd təsərrüfatı sahəsinin inkişafı insanların ürəyindəndir. Baramaçılıq, pambıqçılıq, taxılçılıq... bunlar ölkəyə gəlir gətirəcək”.

Yeni müqavilənin imzalanması ətrafında təhlillərimizi apararkən, həm də belə nəticəyə gəlmək mümkündür ki, bu müqavilədə iştirak edən şirkətlər dünyada tanınmış şirkətlər olduğuna görə, həm də dünyanın aparıcı dövlətlərinə məxsusdurlar. Məhz bu baxımdan, həmin dövlətlərin və şirkətlərin iştirakçısı olduğu müqavilələr daima qorunub-saxlanılır, çalışılır ki, regionda heç bir ciddi problemlər yaranmasın. Bu isə, Azərbaycan üçün əhəmiyyətlidir. Ona görə də, belə bir amilə də toxunaraq, qeyd edə bilərik ki, müqavilənin imzalanması həm də möhkəm əsaslara dayanan müstəqilliyimizin və ölkəmizdəki stabilliyin qorunub-saxlanılması baxımdan əhəmiyyətlidir. Eyni zamanda, Azərbaycanın müstəqil ölkə olaraq dünyadakı mövqeyi daha da möhkəmlənəcək ki, bu faktor yaxın illərdə ölkəmizin dünyanın siyasi-iqtisadi məkanındakı yerini və rolunu növbəti dəfə artırmış olacaq.

Azərbaycanın yeni enerji sazişindən alacağı yalnız bonus Ermənistanın büdcəsinin gəlir hissəsindən 1 milyard ABŞ dolları qədər çoxdur! Onu da qeyd edək ki, məhz bu kimi faktlara görə, Ermənistan və onun havadarları Azərbaycanın atdığı hər uğurlu addımdan tələşa düşür, Azərbaycanla bağlı ağlasığmayan, iftira dolu yalan məlumatlar yaymaqla, özlərinə təsəlli verməyə çalışırlar. Ancaq təcrübə göstərir ki, bu kimi hərəkətlər Azərbaycan rəhbərliyini seçdiyi yoldan qətiyyən yayındıra bilmir və bilməyəcək də. Prezident İlham Əliyev təmkinli, uzaqgörən və düşünülmüş siyasəti ilə qarşıya çıxarılan bütün maneələri keçir və ölkəni yeni zirvələrə doğru aparır.

### Titanik zəhmətin uğurlu nəticəsi

Bütün bu deyilənlərin məntiqi nəticəsini ölkə başçısı nitqində çox lakonik və maraqlı ifadə edib. Prezident İlham Əliyev vurğulayıb: “Azərbaycan bu gün, o ölkələrdəndir ki, öz hesabına yaşayır. Bizim kifayət qədər böyük valyuta ehtiyatlarımız var, iqtisadiyyat dinamik şəkildə inkişaf edir, iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığın azaldılması istiqamətində çox önəmli addımlar atılmışdır və ölkəmizin gələcək inkişafı üçün nə siyasi, nə iqtisadi, nə də hər hansı bir başqa maneə və ya problem yoxdur”

Beləliklə, “Əsrin müqaviləsi”nin davamı olan “Yeni Əsrin müqaviləsi” Azərbaycanın dövlətçilik tarixində mühüm hadisələrdən biri olaraq dövlət quruculuğunun yeni mərhələyə qədəm qoymasını ifadə edən faktorlar sırasındadır. Bu prosesin geosiyasi aspektdə çox vacib cəhəti ondan ibarətdir ki, Azərbaycan müstəqil dövlət quruculuğunu beynəlxalq aləmdə nüfuzunu sürətlə yüksəltməklə inkişaf etdirir. Artıq ölkənin etibarlı tərəfdaş obrazı formalaşıb. Dünyanın nəhəng enerji şirkətlərinin hər biri Bakı ilə əlaqələrin qurulmasına can atır. Bu prosesin əsasını, düz 25 il öncə, Ulu Öndər Heydər Əliyevin uzaqgörən “Əsrin müqaviləsi” kimi tarixi neft strategiyası qoyub. Bu gün Prezident İlham Əliyevin 25 illik enerji diplomatiyasını uğurla inkişaf etdirərək, növbəti “Yeni Əsrin müqaviləsi” kimi tarixi sazişin imzalanmasına nail olundu. Bu titanik zəhmətin bəhrəsidir və Azərbaycan bundan sonra da sürətlə və qətiyyətlə inkişaf edəcək! Yeni əsrdə yeni zirvələr fəth ediləcək!

**RƏFİQƏ KAMALQIZI**

# YAP İcra Katibliyində "Əsrin müqaviləsi" - Azərbaycanın yüksəlişinin möhtəşəm təməli" mövzusunda dəyirmi masa keçirilib

***Sentyabrın 18-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində "Əsrin müqaviləsi" - Azərbaycanın yüksəlişinin möhtəşəm təməli" mövzusunda dəyirmi masa keçirilib.***



Tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov "Əsrin müqaviləsi"nin tarixi əhəmiyyətindən bəhs edib. Əli Əhmədov bildirib ki, Azərbaycanın çətin zamanlarında Ümummilli Lider Heydər Əliyev bu müqavilənin imzalanmasına nail oldu. Onun sözlərinə görə, müharibə şəraitində olmasına baxmayaraq, Azərbaycan dünyanın enerji mərkəzinə çevrildi. Dünyanın nüfuzlu dövlətləri, nəhəng şirkətləri ölkəmizə cəlb olundu. Bu sazişin imzalanması





Azərbaycan iqtisadiyyatının inkişafının əsasını qoydu. Azərbaycan nefti dünya bazarına çıxarıldı, ölkəyə valyuta kütləsi daxil oldu və bununla da inkişaf prosesləri başlandı. Beləliklə, 1994-cü il sentyabr ayının 20-də təkcə Azərbaycanın iqtisadiyyatı və enerji sahəsi üçün deyil, bütövlükdə qlobal enerji siyasətinin həyata keçirilməsi baxımından böyük əhəmiyyət kəsb edən "Əsrin müqaviləsi" imzalandı.

Baş nazirin müavini qeyd edib ki, XX əsrin son onilliyinin ən möhtəşəm layihələrindən biri məhz "Əsrin müqaviləsi" idi. "Bu müqavilənin imzalanması birmənalı şəkildə Heydər Əliyevin böyük dühasının və iradəsinin sayəsində mümkün olub. Azərbaycan dövlət müstəqilliyini yenicə əldə etmişdi. Ölkəmizin daxilində və ətrafında gedən siyasi proseslər müəyyən səbəblərdən başa çatmamışdı. Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi əzəmətli siyasətə Azərbaycanın neft strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi də daxil idi. O zaman Azərbaycanda vəziyyət tam sabitləşməmişdi, ölkə müharibə vəziyyətində idi və digər risk amilləri də mövcud idi. Bütün bunlara baxmayaraq, Heydər Əliyev Azərbaycan və bütövlükdə dünya enerji bazarı üçün əhəmiyyət kəsb edən bu layihəni işləyib, hazırlayıb həyata keçirə bildi".

YAP Sədrinin müavini söyləyib ki, artıq 25 ildir ki, "Əsrin müqaviləsi" Azərbaycanın iqtisadiyyatına və xalqın rifahına xidmət etməkdədir: "Bu layihənin ən böyük əhəmiyyəti Azərbaycana böyük maliyyə ehtiyatlarının gəlməsi, bu ehtiyatlar hesabına iqtisadiyyatının inkişaf etdirilməsi, insanların rifah halının yaxılaşması, ölkədə infrastrukturun yeniləşməsidir". Onun sözlərinə görə, "Əsrin müqaviləsi"nin geosiyasi cəhətdən də böyük əhəmiyyəti var. Belə ki, Azərbaycanın həm regionda, həm də dünya birliyində siyasi mövqeyi, nüfuzunun möhkəmlənməsində bu layihənin uğurla həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

Əli Əhmədov deyib ki, neftdən gələn gəlirlər xalqımızın rifahının yüksəlməsinə xidmət edir. Prezident İlham Əliyevin əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atdığı addımların əhəmiyyətini vurğulayan Baş nazirin müavini neft strategiyasının bundan sonra da uzun illər Azərbaycan xalqına xidmət edəcəyini diqqətə çatdırıb.

Tədbirdə çıxış edən SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə "Əsrin müqaviləsi"nin əhəmiyyətindən danışaraq bildirib ki, Ümummilli Lider Heydər Əliyevin müəllifliyi ilə ərsəyə gələn bu saziş hesabına neft sənayesində böyük dəyişiklik baş verdi. Dənizdə neft quyularının işlənilməsi prosesi sürətləndi. Azərbaycan neftinin müasir üsullarla çıxarılmasına başlanıldı və dünya bazarında satışı təşkil olundu. Bir sözlə, Ulu Öndər Heydər Əliyevin şah əsəri olan "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın dirçəlişinə, iqtisadi inkişafına böyük yol açdı. X.Yusifzadə "Əsrin müqaviləsi"nin imzalanması üçün aparılan danışıqların uğurla başa çatmasında o zaman SOCAR-ın birinci vitse-prezidenti vəzifəsində çalışan cənab İlham Əliyevin xüsusi rolunu vurğulayıb.

O deyib ki, Azərbaycanın böyük neft ehtiyatları mövcuddur. Bu gün yeni neft yataqlarının aşkar edilməsi və neft quyularının qazılması ilə bağlı işlər davam etdirilir. X.Yusifzadə bildirib ki, bu gün Azərbaycanın 4 milyard ton təsdiq edilmiş neft ehtiyatları var. Onun sözlərinə görə, bu günə qədər Azərbaycan xarici bazarlara 554 milyon ton neft çıxarıb.

X.Yusifzadə vurğulayıb ki, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" yataqlar bloku istifadəyə verilən gündən bəri ümumilikdə 492 milyon ton neft hasil edilib. O hazırda "Şahdəniz" layihəsi üzrə görülən işlər barədə də geniş məlumat verib.

Tədbirdə daha sonra Dövlət Neft Fondunun icraçı direktorunun müavini İsrafil Məmmədov, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı, Milli Məclisin deputatı Tahir Mirkişili, BAXCP sədri Qüdrət Həsənquliyev, Ana Vətən Partiyasının sədri, Milli Məclisin deputatı Fəzail Ağamalı və Böyük Quruluş Partiyasının sədri, Milli Məclisin deputatı Fazil Mustafa çıxış ediblər. Çıxışlarda bildirilib ki, bu gün müstəqil Azərbaycanın iqtisadi müstəqilliyini, yüksək maliyyə təminatına malik ölkəyə çevrilməsini şərtləndirən bir sıra amillər sadalamaq mümkündür ki, bunların sırasında da ölkəmizin uğurlu enerji siyasətinin önəmini xüsusi vurğulamaq lazımdır. Məlumdur ki, Azərbaycan tarixən dünyada "qara qızıl"la zəngin olan bir diyar kimi tanınıb. Ancaq məhz müstəqillik dövründə xalqımız respublikamızın malik olduğu təbii sərvətlərin əsl sahibinə çevrilib və onun bəhrəsini görməyə başlayıb.

Qeyd olunub ki, 25 il öncə "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın güclü iqtisadi potensialının formalaşdırılmasında müstəsna rol oynamış, regionun və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə böyük töhfə vermişdir. Bu müqavilənin imzalanması Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi və çox böyük səyləri sayəsində mümkün oldu.

Bakıda Qərbin müxtəlif şirkətləri ilə bağlanmış neft sazişi yenicə müstəqillik qazanmış Azərbaycan Respublikasının yeni tarixinin şanlı səhifəsini açdı. "Əsrin kontraktı" adı ilə indi bütün dünyada tanınan bu müqavilənin imzalanması, onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və Ulu Öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən neft strategiyası ölkəmizi lider ölkələr səviyyəsinə yüksəldib. Azərbaycan qısa müstəqillik tarixində özünün iqtisadi imkanlarını və milli gəlirlərini əhəmiyyətli dərəcədə artıraraq dünya miqyasında güclü dövlətə çevrilib.

O da vurğulanıb ki, Azərbaycan "qara qızıl"ın insan kapitalına çevrilməsi istiqamətində də inamlı addımlar atır. Respublikamızda sosial-iqtisadi infrastruktur quruculuğu geniş vüsət alıb. Eyni zamanda, özünün güclü iqtisadi potensialına, geniş maliyyə imkanlarına əsaslanan Azərbaycan ölkə vətəndaşlarının yüksək həyat səviyyəsini təmin etməyi hədəfləyən siyasət həyata keçirir.

# “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət istifadəyə verilib



***Sentyabrın 18-də IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.***



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib. Ümumi sahəsi 12000 kvadratmetr olan həyət Xətai rayonu, Lütfi Zadə 10, M.Rüstəmov 21, Sarayevo 19 ünvanlarında 2500 nəfər sakinin yaşadığı beş 9 mərtəbəli və iki 16 mərtəbəli binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti də nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə süni örtüklü mini futbol meydançası, şahmat meydançası, müxtəlif idman qurğuları və uşaqlar üçün oyun meydançası salınıb.



Eyni zamanda, ərazidə velosiped yolu, 10 söhbətgah inşa edilib, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb, həyətdəki xeyir-şər evi əsaslı təmir olunub və bütün avadanlıqlarla təmin edilib.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar və plastik pəncərələr quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ədəd ağac, gül kolları əkilib və 4500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Xətai rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan otuzuncu həyətdir. Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.



# YAP-ın Ağdam və Bərdə rayonlarından olan fəalları ilə görüş keçirilib



***Sentyabrın 18-də Bərdə rayonunda Yeni Azərbaycan Partiyasının Bərdə və Ağdam rayonlarından olan fəalları ilə görüş keçirilib. Görüşdə Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini Əli Həsənov, Milli Məclisin deputatları Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Ağdam və Bərdə Rayon İcra hakimiyyətlərinin başçıları Vaqif Həsənov, Vidadi İsayev və ictimaiyyət nümayəndələri iştirak ediblər.***



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə tər gül dəstələri qoyulub.

Bərdə rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini Əli Həsənov çıxış edərək, əsasını ulu öndər Heydər Əliyevin qoyduğu və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət nəticəsində Azərbaycanın ötən illər ərzində böyük inkişaf yolu keçdiyini diqqətə çatdırıb, rayon təşkilatının və partiya fəallarının qarşısında duran vəzifələrdən bəhs edib. Tədbirdə YAP Bərdə rayon təşkilatının sədri Fəqət Şadlinskaya, Ağdam rayon təşkilatının sədri Allahverən Əliyev, Milli Məclisin deputatı Bəxtiyar Əliyev, Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev çıxış ediblər. Sonda YAP sıralarına yeni daxil olmuş gənclərin bir qrupuna partiya biletləri təqdim olunub.

# “Bunların hamısı qəti şəkildə yalandır”

***“Müxalif baxışlı ekspert və bloqçular tərəfindən işsizlik statistikası ilə bağlı manipulyasiya cəhdlərinin artması müşahidə olunur. Verilən şərhlərdə statistikanın daha yüksək olduğu, rəsmi rəqəmlərin reallığı əks etdirmədiyi iddia olunur”. Bunları məsələ ilə bağlı SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov deyib.***



S.Novruzov bildirib ki, bunların hamısı qəti şəkildə yalandır: “Bu gün Azərbaycanda kifayət qədər yeni iş yerləri, yeni müəssisələr açılır, sənaye parkları tikilir, kənd təsərrüfatı sahəsində böyük inkişaf mövcuddur. Bu gün demək olar ki, kənd təsərrüfatının bütün sahələri inkişaf edir və rayon yerində qalan xeyli sayda insan burada çalışır. Azərbaycanda bütün sahələrdə çox ciddi şəkildə inkişaf vardır. Əslində elə onların söylədikləri bütün bunları gözügötürməməzlikdən irəli gəlir. İstər xaricdə oturanlar, istərsə də Azərbaycanın daxilində olanlar və ölkəmizin bu inkişafını gözügötürməyənlər, erməni lobbisinə xidmət edənlər, ayrı-ayrı qüvvələrə xidmət edən insanlar məhz bu məsələlərdə Azərbaycanın əleyhinə fikirlər söyləməyə başlayır. Baxın, Azərbaycanda necə gözəl məktəblər tikilib istifadəyə verilib. Hətta insan o məktəbləri görəndə yenidən oxumaq istəyir. Lakin bəzən görürük yazırlar ki, ilan gəzən məktəblər və s. Axı Azərbaycanda hansı məktəbdə ilan gəzib? Azərbaycanın məktəblərində olan infrastruktur, quruculuq və dizayn dünyanın heç bir yerində yoxdur. Hətta bəzi universitetlər onunla müqayisəyə girə bilməz. Bu baxımdan məktəbəqədər təhsil müəssisələrinin, məktəblərin, peşə texniki məktəblərinin açılması və fəaliyyət göstərməsi Azərbaycanın çox geniş gələcək perspektivlərindən xəbər verir. Çünki o müəssisələrdə, yerlərdə təhsil alan insanların gələcəyi çox parlaqdır. Hesab edirəm ki, bu məsələlər davamlı xarakter alacaq.

Azərbaycan Prezidenti cənab İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondu tərəfindən xeyli sayda işlər görülür və addımlar atılır. Məhz elə Azərbaycan neftindən gələn gəlir sayəsində görürsünüz ki, ölkəmizdə bir dənə də olsun çadır şəhərciyi qalmayıb. Bu gün ən müasir evlərdə insanlar yaşayır. Vaxtilə 30 il növbədə durub ev gözləyən insanlar indi dərhal müasir mənzillərlə təmin olunurlar. Biz bu sıraya jurnalistləri, incəsənət adamlarını, yazıçıları, yaradıcı şəxsləri və s. daxil edə bilərik. Bütün bunlar hamısı Ümummilli Liderin vaxtında qoyduğu neft strategiyasının düzgün istiqamətdə olması və neftdən gələn gəlirin Azərbaycan xalqının maraqlarına xidmət etməsidir”.

***Ceyhun Rasimoğlu***

# “Əsrin müqaviləsi” bundan sonra da Azərbaycanın qüdrətini artırmağa xidmət edəcək”

“Əsrin müqaviləsi”nin imzalanması yalnız Azərbaycanın uzaqgörən və səmərəli enerji strategiyasının deyil, həm də ölkənin ümumi iqtisadi çiçəklənməsinin əsasını qoyub. Tarixi sənədin əhəmiyyətini daha yaxşı dərk etmək üçün biz həmin dövrü xatırlamalı, müstəqilliyimizin elan olunduğu ilk illərdə hakimiyyətin səriştəsizliyi səbəbindən ölkədəki hərc-mərcliyin hökm sürdüyünü, bütün sahələrdə anarxiyanın mövcud olduğunu, iqtisadiyyatın çökdüyünü yada salmalıyıq. Belə bir dövrdəAzərbaycanın mövcudluğunu təsdiq etməsi üçün konkret addım atılmalı idi. Məhz 1994-cü ildə Ulu öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı sayəsində imzalanan “Əsrin müqaviləsi” Azərbaycanın geosiyasi nüfuzunun yüksəlməsinə, müstəqil dövlət quruculuğu prosesinin uğurla inkişaf etdirilməsinə imkan yaratdı”. Bu fikirləri Olaylar.az -a “Səs” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib.

Müqavilənin yeni neft strategiyasının əsasını qoymaqla yanaşı, Azərbaycanın dünya dövlətləri ilə münasibətlərinin inkişafına, ölkəmizin xarici siyasətinin milli maraqlar əsasında davam etdirilməsinə, respublikamızın beynəlxalq mövqeyinin möhkəmlənməsinə təkan verdiyini deyən ekspert bildirib ki, “Əsrin müqaviləsi” ilə müstəqilliyini bir daha sübut edən Azərbaycan öz sərvətlərinə tam sahib olduğunu bütün dünyaya nümayiş etdirdi.

Baş redaktor söyləyib ki, saziş imzalanana qədər heç bir dövlət Azərbaycana investisiya qoymaqda maraqlı deyildi: “Yalnız müqavilə imzalandıqdan sonra ölkənin beynəlxalq aləmdə nüfuzu xeyli artdı, etibarlı tərəfdaş imici tam olaraq formalaşdı və əsas faktorlardan biri kimi, Azərbaycan zəngin məmləkətlərdən birinə çevrildi. Dəyəri 7,4 milyard dollar olan “Əsrin müqaviləsi”ndə dünyanın 7 ölkəsini (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanı) təmsil edən 11 beynəlxalq neft şirkəti (Amoco, BP, McDermott, UNOCAL, ARDNŞ, Lukoil, Statoil, Türkiyə Petrolları, Pennzoil, Ramco, Delta) iştirak edib. Bu uğurlu strategiya nəticəsində nəinki neft sənayesini əhatə edən sahələr dirçəldi, həm də bütövlükdə ölkə iqtisadiyyatı inkişaf etdi. Bu baxımdan, neft sənayesinin inkişafı qeyri-neft sektorunun tərəqqisinə də ciddi təsir göstərdi”.

“Əsrin müqaviləsi” imzalandıqdan sonra-



kı 25 il müddətində neft strategiyası sayəsində çox mühüm hadisələrin baş verdiyini deyən B. Quliyev vurğulayıb ki, saziş bu müddət ərzində Azərbaycan tərəfindən həyata keçirilən geniş transmilli layihələrin başlanğıcı oldu: “1996-cı ildə “Şahdəniz” yatağı üzrə müqavilənin imzalanması, 1997-ci ildə “Çıraq” platformasından ilk neftin çıxarılması, 1998-ci ildəBakı - Novorossiysk neft kəmərinin bərpa olunması və neftimizin Qara dəniz vasitəsilə ixrac edilməsi, 1999-cu ildə Bakı-Supsa neft kəməri, 2002-ci ildə isə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlininqoyulması və 4 ildən sonra istismara verilməsi, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin də istifadəyə verilməsi və digərləri Ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının müsbət nəticələri və bəhrələridir”.

Ekspert qeyd edib ki, təməli Ulu öndər tərəfindən qoyulan siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin bu sahəyə dair hədəfləri düzgün müəyyənləşdirməsi nəticəsində Azərbaycan bu gün beynəlxalq aləmdə kifayət qədər tanınan, dünya birliyində siyasi, iqtisadi qüdrəti ilə fərqlənən, beynəlxalq əməkdaşlıq arenasında inam və etibarı artan, müstəqil siyasət aparan, çox yüksək və müsbət nüfuza malik olan ölkəyə çevrilib: “Bunun nəticəsidir ki, 2017-ci ildə Azərbaycan 6 ölkənin 11 şirkəti ilə 2050-ci ilə qədər “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yenilənmiş saziş imzaladı. Bu saziş, şübhəsiz ki, 1994-cü ildə imzalanmış müqavilənin yalnız zaman baxımından deyil, həm də geosiyasi aspektdə davamıdır. İmzalanan saziş Azərbaycanın daha da gücləmməsinə xidmət edir. Əminəm ki, “Əsrin müqaviləsi” bundan sonra da Azərbaycanın qüdrətini daha da artırmağa xidmət edəcək və ona yeni uğurlar qazandıracaq”.

# “”Əsrin müqaviləsi” ilə Azərbaycan sürətli inkişaf mərhələsinə daxil oldu”

“Ümumiyyətlə “Əsrin müqaviləsi” Azərbaycan iqtisadiyyatı və dövlətimiz üçün vacib strateji layihələrdən biridir”. Bunu SİA-ya açıqlamasında iqtisadçı-ekspert Vüqar Bayramov deyib.

“Nəzərə alsaq ki, 1994-cü ildə “Əsrin müqaviləsi” bağlanan zaman Azərbaycan iqtisadiyyatı fərqli bir durumda idi. Bu gün biz 2019-cu ildə “Əsrin müqaviləsi”ni qiymətləndirən zaman həm ümumi daxili məhsulda (ÜDM), həm də büdcə gəlirlərində kəskin artımların olmasını müşahidə edirik. “Əsrin müqaviləsi” bağlanan zaman bütövlükdə Azərbaycanın ÜDM-un həcmi 400 milyon manatdan az idi. Artıq Azərbaycanın ÜDM-nun həcmi 82 milyard manatdan çoxdur. “Əsrin müqaviləsi” eyni zamanda Azərbaycanda digər müqavilələrin bağlanması, digər strateji qərarların verilməsi üçün bir baza formalaşdırıb. Bu yalnız dövlət gəlirlərinin və iqtisadiyyatın artımı üçün deyil, həmçinin yeni nəqliyyat və enerji layihələrinin formalaşmasına imkan yaratdı. Bu baxımdan “Əsrin müqaviləsi” Azərbaycana həm də yeni dövr üçün çağırışların və strategiyanın müəyyənləşdirilməsinə imkan verdi”-deyə, V.Bayramov fikrini tamamlayıb.

# “YAP nümayəndə heyətinin Çinə səfəri münasibətlərin inkişafına öz töhvəsini verəcək”



“Yeni Azərbaycan Partiyası nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri başa çatdı. Çin Kommunist Partiyasının dəvəti ilə və partiyalararası əlaqələrin qurulmasının 20 illiyinə həsr olunan səfər hər iki tərəf üçün maraqlı, məhsuldar və faydalı oldu”. Bunu SİA-ya açıqlamasında millət vəkili Tahir Mirkişili deyib. Deputat səfərlə bağlı bir neçə məqamı xüsusi qeyd edib:

1. Çin dünyanın iqtisadi cəhətdən 2-ci ən böyük gücüdür. Ölkənin iqtisadi potensialı, həyata keçirdiyi layihələr (Bir kəmər bir yol və s.), gələcək planları nəhəngdir.

2. Çin Kommunist Partiyası 90 milyona yaxın insanı özündə birləşdirir. Bizim gördüyümüz kommunist partiyasından fərqli olaraq çox çevik, elastik və müasir şəraitə uyğunlaşıblar. Ciddi intizam və dəyərlər üzərində hakimiyyətlərini sürdürürlər. Əsas dəyərləri isə “daim islahat, inkişaf və rəqabət”dir.

3. Çin rəsmiləri Azərbaycana çox yaxşı münasibət bəsləyirlər. Ulu öndər Heydər Əliyevi və prezident İlham Əliyevi daim xatırlayan rəsmilər Azərbaycanla və Azərbaycanda işləmək istəklərini hər görüşdə qeyd edirdilər.

4. Çinli iş adamlarının Azərbaycanda daha çox iş görmək istəklərini bizə çatdırır, bunun üçün bəzi çətinliklərin olduğunu qeyd etsələr də, Azərbaycanda aparılan islahatları yüksək qiymətləndirir və əlaqələrin daha da inkişafına çox inanırlar.

Bütün bunlardan aşağıdakı nəticələri çıxarmaq olar:

1. Regionun ən böyük və güclü partiyası olan Yeni Azərbaycan Partiyası ilə dünyanın 2-ci ən böyük partiyası olan Çin Kommunist partiyası ilə əlaqələrin inkişafı hər iki ölkənin inkişafına xüsusi siyasi töhvə verəcəkdir. Siyasi münasibətlərin yüksək səviyyədə olması isə iqtisadi münasitləri daha da gücləndirəcək.

2. Çin fərqli bir dünyadır, tam fərqi bir mədəniyyətdir. Nəhəng iqtisadi potensialdır. Biz Çini daha çox öyrənməli və tədqiq etməliyik. Çinlə bağlı ayrıca və fərqli yanaşmamız olmalıdır. Sevindirici haldır ki, Azərbaycanın Çinlə bağlı dövlət siyasəti bu prinsiplər üzərində qurulmaqdadır.

3. Çin rəsmiləri bütün görüşlərdə Azərbaycandan daha çox məhsul idxal etmək arzularında olduqlarını və ölkəmizin bunun üçün iqtisadi potensiala sahib olduğunu qeyd edirdilər. Son illər bu istiqamətdə Azərbaycan dövləti xeyli işlər görür. Bu potensialı biz sürətlə rəqəmlərə çevirməliyik. Beləliklə, hesab edirəm ki, Yeni Azərbaycan Partiyası nümayəndələrinin Çinə səfəri Azərbaycan Çin münasibətlərinin daha da inkişafına öz töhvəsini verəcəkdir”.

# Böyük və tarixi Çin sadəliyi - səfər təəssüratlarımdan ştrixlər...

*"Sadəlik insanın ən gözəl keyfiyyətlərindən biridir"*

Çin filosofu, Konfutsi

***Fikirlərimi, məhz Çinin, həmçinin, bəşərin tarixi filosofu - Konfutsinin, məhz bu kəlamları ilə ona görə başladım ki, aparacağım səfər qeydlərimi daha anlamlı şəkildə dəyərli oxucularıma çatdıra bilim. Bəli, budəfəki səfər dünyanın ən qədim və tarixi köklərinə bağlı olan Çin Xalq Respublikasına idi və ilk növbədə, mən çinlilərin vəzifələrindən və statuslarından asılı olmayaraq, onların nə qədər sadə bir xalq olduğunun növbəti dəfə şahidinə çevrildim. Hələ Bakının Heydər Əliyev adına Hava Limanından Pekinə uçmağa hazırlaşarkən, düşüncələrimdə 3 il öncəki səfər təəssüratlarım canlanmağa başlamışdı. Düşünürdüm ki, dünyanın sürətlə inkişaf edən, istehsalat texnologiyaları, sənayesi, flora və faunası ilə dünya bazarının ən münbit yerlərinə sahib olan Çin, ötən qısa müddət ərzində, nə qədər dəyişilə bilər? Bu suallarla, yeniliklər görmək maraqları ilə təyyarədəki yerimizi tutduq və ÇXR-in paytaxtı Pekinə doğru səfərimiz başladı.***







### Çin səfəri hər birimizin həyat sərlövhəsində yeni və maraqlı səhifə açmış oldu

Digər mövzulara keçməmişdən öncə, xatırladım ki, səfərimizin məqsədi Yeni Azərbaycan Partiyasının (YAP) Çin Xalq Respublikası Kommunist Partiyası (ÇKP) ilə əlaqələrinin 20-ci ildönümündə iştirak etməkdən ibarət olub. Nə az, nə çox - düz 20 ildir ki, ölkəmizin hakim partiyası dünyanın bir sıra siyasi partiyaları ilə yanaşı, həm də Çinin Kommunist Partiyası ilə sıx əlaqələrini qurub, münasibətlərini inkişaf etdirib və bu münasibətlər ən yüksək səviyyədə özünü təcəssüm etdirib. Böyük nümayəndə heyətimizin Çin səfəri hər birimizin həyat sərlövhəsində yeni və maraqlı səhifə açmış oldu.

Beləliklə, təyyarəmiz Pekin Beynəlxalq Hava Limanına eniş etdi və hava laynerinin trapından aşağı enərkən, bizi, ilk növbədə, bu ölkənin yumşaq və qonaqpərvərlik havası qarşıladı.

### Görüşlər əlaqələrimizin daha da möhkəmlənməsinə və möhkəm təmələrə söykənməsinə stimul verdi

Qeyd edim ki, YAP Siyasi Şurasının üzvü, Milli Məclisin komitə sədri Hadi Rəcəblinin rəhbərlik etdiyi 19 nəfərdən ibarət nümayəndə heyətimiz səfər çərçivəsində ÇKP MK-nın Beynəlxalq əlaqələr şöbəsinin 6-cı Departamentinin rəis müavini Van Min, ÇKP MK-nın Ali Partiya Məktəbinin beynəlxalq əməkdaşlıq şöbəsinin direktoru xanım Dun Tsin və məktəbin təhsil şöbəsinin direktoru xanım Lo Mintsi, ÇKP MK-nın Beynəlxalq şöbəsinin nazir səviyyəsində rəhbəri Sun Tao və digər şəxslərlə görüşlər keçirib, YAP və ÇKP, Azərbaycan və Çin xalqları arasındakı dostluq münasibətləri, Çinin "Bir kəmər - bir yol" təşəbbüsünün reallaşmasında Azərbaycanın rolu müzakirə olunub, dövlət idarəçiliyi sahəsində iki ölkə arasında təcrübə mübadiləsi aparılıb. Ümumiyyətlə, bu görüşlər əlaqələrimizin daha da möhkəmlənməsinə, davamlılığına, o cümlədən, möhkəm təməllərə söykənməsinə daha bir stimul vermiş oldu.

Qeyd edim ki, Çin Kommunist Partiyası 90 milyona yaxın insanı özündə birləşdirir. Eləcə də, ənənəvi kommunist partiyalarından fərqli olaraq, ÇKP modern kommunizm ideologiyası əsasında fəaliyyət göstərir. Burada zəka, ciddi nizam-intizam, milli dəyərlər və çeviklik əsas önəm daşımaqdadır.








Bu ideoloji yanaşma Çinin dünya ölkələrinin ən aparıcı gücləri ilə rəqabətə girməsinə, hətta zaman-zaman onları üstələməsinə səbəb olmaqdadır. Ümumiyyətlə, 3 il əvvəl - 2016-cı il səfərimlə haqqında bəhs etdiyim cari səfərim arasında çox böyük irəliləyişləri müşahidə etmiş oldum. Əsasən, Çinin dinamik islahatçı ölkə kimi tərəqqi etdiyinə bir daha əminliklə yanaşdım.



## Çin deyilərkən, tükənməz potensiallıq faktoru önə çıxmaqdadır

Digər düşüncələrimi və səfər təəssüratlarımı bölüşərkən, diqqətimi növbəti maraqlı məqamlar cəlb etdi. Bu, ilk növbədə, çinlilərin punktuallığı və xüsusilə, inzibatçılıq məsələlərində ən kiçik detallarına qədər incəliklərə varmalarıdır. Demək olar ki, bütün görüşlərimizdə bizimlə təmasda olan və müşahidə edən ÇKP təmsilçiləri ardıcıllıqları qoruyur, hətta fotoşəkil çəkdirərkən belə, kimin-kimdən daha öncə dayanması kimi amillər nəzərə alınırdı. Demək istəməzdim ki, bu kommunizm ideologiyasının bir göstəricisidir. Əksinə, bu, Çin xalqının, nə qədər diqqətcil, böyük-lük-kiçiklik məsələlərində nə qədər həssas olmalarının təzahürüdür. Daha dəqiq desəm, Çin olduqca zəngin və müxtəlif mədəniyyətlərə malik olan bir ölkədir və bu ölkənin ənənəvi mədəniyyəti min illər boyu təcrid olunmuş vəziyyətdə formalaşmışdır. Tarixə nəzər salarsaq, 1949-cu ildən sonra bu mədəniyyətin kommunizmin ideologi təsiri ilə daha çox zənginləşdiyini deyə bilərik. 1980-ci illərdən bəri isə, Çin hökuməti ənənəvi mədəniyyətin canlanması istiqamətində işlər aparmağa başladı. Belə də demək mümkündür ki, müasir Çin mədəniyyəti qloballaşma prosesləri ilə əlaqəli ənənəvi mədəniyyət, kommunist ideyaları və post-modernist təsirin qarışığıdır.

Biz, Çin şəhərlərini gəzərkən, hər bir şəhərin özünəməxsus gözəlliklərinin, memarlıq abidələrinin füsunkarlıqlarının, özəlliklə, şəhərlərdəki təmizliklərin, abadlıqların nə qədər yüksək səviyyədə təmin olunduğunu müşahidə etdik. Atdığımız hər bir addım, müşahidə etdiyimiz hər bir məqam bizə bu ölkənin tarixi və mədəni ecazkarlıqlarından xəbər verirdi. Bütövlükdə, Çin deyilərkən, tükənməz potensiallıq faktoru önə çıxmaqdadır.

## Şanxay - müasirliklə qədimliyin sintezi

Nümayəndə heyətimizin Pekin, Şanxay və Fenqjinq şəhərlərindəki gəzintisi, ekskurs etdiyimiz tarixi binalar, qədim məbədlər sanki əsrlər öncəki reallıqları yenidən gözlərimiz önündə canlandırılırdı. Müasirliklə qədim tarixin sintezi, sözün əsl mənasında, bu ölkəni və şəhərlərini ziyarət edən hər kəsi valeh edir. Paytaxt Pekindən başlayaraq, Böyük Çin Səddinə, həmçinin, İmperator Sarayına qədər nəzərimizə dəyən hər bir incəlik bu ölkənin, bu xalqın nəhəng epoxaya malik olduğunu nümayiş etdirirdi.

Əsasən, bizə sual edirlər ki, siz Çində hansı qida növlərindən istifadə edirsiniz? Düzdür, mən qurman olmasam da, Çinin çoxşaxəli mətbəxi ilə də hər zaman maraqlanmışam. Əlbəttə, çinlilərə məxsus özəl mətbəxlər mövcuddur, lakin bu ölkədə müsəlmanların, digər dünyəvi dinlərə məxsus insanların da yaşadıqlarını nəzərə alarsaq, demək olar ki, bütün böyük şəhərlərində beynəlxalq mətbəxlərə əsaslanan iaşə xidmətləri fəaliyyət göstərir. O cümlədən, bizim nümayəndə heyətimizi qonaqlayan otelin restoranında və s. ziyafətlər təşkil edilən müəssisələrdə, əsasən, Avropa mətbəxi təqdim olundu. Lakin Çinin ənənəvi mətbəxinin də çox dadlı və ləziz yeməkləri vardır.

Bizim Şanxay şəhərinə etdiyimiz səfər də özünəməxsusluğu və unudulmazlığı ilə xatirələrimizə yazıldı. Şanxayda keçirilən görüşdən sonra, nümayəndə heyəti ilə şəhərin mərkəzində yerləşən və “Şərqin Mirvarisi” adlandırılan radio - TV qülləsində olduq. Bu qüllədən, sanki bütün Çin mavi səmalardan görünməkdədir. Qeyd edim ki, Şanxay şəhəri Çinin ən böyük meqapolisidir. Çinin şərq sahilində Yangtze çayı deltasında məkan qurmuş bu şəhər olduqca sıxdır. Şanxay, həmçinin, ən əhəmiyyətli liman şəhəridir. Əbəs deyil ki, şəhər xalqın ən əhəmiyyətli mədəni, ticari, sənaye və ünsiyyət mərkəzlərindən biri olaraq göstərilir. Şanxayın göydələnləri, ən müasir standartlara cavab verən biznes mərkəzləri bir çox nüfuzlu mərkəzlərlə rəqabətə girməkdədir.

Daha sonra 1500 yaşı olan Fenqjinq tarixi şəhərinə ekskursiya təşkil edildi və biz daha bir tarixi ecazkarlıqla qarşı-qarşıya qaldıq. Canlı şəhər olan Fenqjinq 15 əsrlik həyatında hansı hadisələrə şahid olubsa, bu, öz yerində, ancaq bu şəhərdə hələ də ailələrin yaşaması və müasir həyatla ayaqlaşması, həqiqətən də, çox maraqlı bir reallığı nümayiş etdirməkdədir. Ümumiyyətlə, Çin xalqının öz tarixini qoruyub-saxlaması, həm də bir nümunədir desək, yanılmarıq.

## Gördüklərimizin, seyr etdiklərimizin hər bir məqamında, məhz sadəlik öz sözünü dedi

Beləliklə, baş tutan Çin səfərindən aldığım bütün təəssüratları bir araya gətirib, onların təhlilini aparsaq, buna nə vaxt, nə də zaman yetişər. Çinin iqtisadiyyatı, kənd təsərrüfatı, heyvandarlıq sahəsi, balıqçılıq, çayçılıq, tütünçülük və s. qida, yeyinti, ağır və yüngül sənayeləri bu ölkənin tükənməyən potensialının aşkar göstəricisidir. Bu baxımdan, nümayəndə heyətimiz Qədim Çin diyarından ayrılarkən, yenidən bu ölkəyə qayıtmaq ümidi ilə hava limanına doğru istiqamət aldıq...

Təəssüratlarımı, yazımın əvvəlində qeyd etdiyim böyük Çin filosofu Konfutsinin həmin ifadələri ilə sona çatdırmaq istəyirəm: sadəlik insanın ən gözəl keyfiyyətlərindən biridir. Bəli, bizim gördüklərimizin, seyr etdiklərimizin hər bir məqamında, məhz sadəlik öz sözünü dedi - tarixi Çin sadəliyi...

***Bəhruz QULİYEV,***
***Bakı-Pekin-Şanxay-Pekin-Bakı***

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

19 sentyabr 2019-cu il

# Aslan İsmayılov və oğlu erməni casusun "qolları arasında"

## *DTX-nı hərəkətə keçirəcək şok FOTOLAR*



**Aslan İsmayılov və oğlu Ziyəddinin Erməni Tələbələr Assosiasiyasının lideri olmuş Kristina Puşua ilə əməkdaşlığının pərdəarxası**

Bir neçə saniyə diqqətinizi yuxarıdakı fotoya cəmləyin və şəkildəki xanımcığaza diqqətlə baxın. Çoxmu gözəldir? Əgər bu suala cavabınız müsbətdirsə, o zaman heç tələsməyin, mən sizə onun lap yaxşı vaxtlarına aid, necə deyərlər, əntiqə şəkillər də təqdim edəcəm. Xanımcığaz Kristina Puşaudur. Bu ad sizə heç nə demir? Tanımırsınız? Vallah, doğrusu, heç mən də tanımırdım dünənə qədər. Ta o dəqiqəyə qədər ki, keçmiş vəkil, Aslan İsmayılov kod adı ilə Azərbaycanda ictimai narazılığı körükləyəcəyini açıq şəkildə hər kəsə vəd etmiş məşhur avantürist öz "Facebook" səhifəsində onun haqqında danışanadək! Aslan İsmayılov bildirmişdi ki, Gürcüstandan Ukraynaya iki soydaşımız səfər edib, orada Mixail Saakaşvilinin evində qonaq olub:

"Gürcüstanda fəaliyyət göstərən "Yeni Liderlər Təşəbbüsü" layihəsi 5 sessiyadan ibarət olaraq təxminən 1 ay davam edib. Təlimlərdə 600-yə yaxın iştirakçı, 5000-dən çox müraciət edən olub. Təlimlər və Saakaşvili ilə görüş Yeni Liderlər Təşəbbüsü qeyri-hökumət təşkilatının direktoru Kristina Puşau tərəfindən təşkil olunub. Təşkilatın azərbaycanlılar üzrə koordinatoru, həmçinin təlimlərdə mühazirə söyləyən Ziyəddin İsmayılovdur".

https://24news.ge/read-/id/9417?fbclid=IwAR0pZeornHMIZcEuCmez-6AHl6HC4b0rChj7B1GTnVP2bdL50C28Tj72pSR8

Ziyəddin Aslan İsmayılovun oğludur və ilk baxışda belə bir paylaşım öz övladının vətəndaş cəmiyyətinin inkişafında səmərəli rol oynamasından iftixar hissi keçirən atanın öz duyğularını izləyiciləri ilə bölüşməsi təəssüratı oyadır. Amma bu təəssürat Aslan İsmayılovu tanımayan, onun mahiyyətinə bələd olmayan sadəlövh insanlarda yarana bilərdi, mən də yox! Aslan İsmayılovun yumşaq, çox yumşaq desəm, salamat adam olmadığını dəqiq bildiyimdən, paylaşımdakı "layihə" və "koordinator" sözlərini görən kimi, ağlıma ermənilər gəldi. Aslan İsmayılov Azərbaycana, azərbaycanlılara, vətəndaş cəmiyyətinin inkişafı kimi idealist təşəbbüslərə qoşulan bir oğulla əsla və əsla qürur duymazdı. Bir el deyimini dəyişib desək, atası gəzən ağacı balası budaq-budaq gəzməli, ermənilərlə iş birliyi qurmalı idi.

Çox adam bilir ki, hələ 1989-cu ildə "Sumqayıt hadisələri" ilə bağlı imperiya prokuroru olaraq iştirak etdiyi məhkəmə prosesində o, ermənipərəst mövqe tutmuş, ermənilərə qarşı zorakılıq törətməkdə təqsirli bilinən bir çox soydaşımıza ölüm hökmü də daxil ən ağır cəzalar istəmişdi. Lap yaxın günlərə qədər azərbaycanlı iş adamı, "Xəmsə" MMC-nin sahibi Mürvət Həsənlini Türkiyədəki "Emre Piliç" şirkətinin ortaqları olan ermənilərin etibarnaməsi əsasında divana çəkir, ancaq vəkil statusu olmadan hüquqi mübahisəni məhkəmədə deyil, sosial şəbəkədə söyüş, təhqir, böhtanla aparırdı.




Üçüncüsü, Aslan İsmayılovun fəaliyyətini gündəlik diqqətdə saxlayan bir jurnalist, siyasi təhlilçi olaraq adım kimi əmin idim ki, Ermənistan kəşfiyyatının trolları onu ciddi şəkildə dəstəkləyir və bu dəstək öncədən razılaşdırılmış fəaliyyət planı əsasında verilir. Elə bu səbəbdən də düşünürdüm və hətta yaxın dostlara da zaman-zaman deyirdim ki, cidanı çuvalda çox gizlətmək mümkün olmayacaq, bu barədə hər hansı ipucu üzə çıxacaq. Elə bu səbəbdən də Kristina Puşaunun adına "Armenia" yazaraq "Google" axtarış sistemində düyməni basdım və... ŞOK! Daxili inamım bu xanımcığazın ermənipərəst olacağı, İrəvana səfər edib Azərbaycan əleyhinə nitqlər söyləyəcəyi yönündə idi, ancaq qarşıma elə bir fakt çıxdı ki... Məlum oldu ki, Aslan İsmayılovun dəfələrlə öz "Facebook" səhifəsində adını çəkdiyi, fəaliyyətini təqdir etdiyi, həyata keçirdiyi layihələrdə soydaşlarımızı fəal iştirak etməyə çağırdığı, oğlu Ziyəddinin "hayıl-mayıl" şəkillər çəkdirərək rəsmən Azərbaycan üzrə nümayəndəsi olduğu Kristina Puşau... ERMƏNİDİR, ERMƏNİ DİASPORUNUN FƏAL NÜMAYƏNDƏSİDİR!












Budur, indi təqdim edəcəyim linkdə deyilir ki, Puşau bakalavr təhsilini 2012-ci ildə başa vurub. Bakalavr təhsili aldığı Cənubi Kaliforniya Universitetində Erməni Tələbələr Assosiasiyasına başçılıq edib. Cənubi Kaliforniya Universiteti isə erməni diasporunun mətəsi sayılan Los-Anceles şəhərinin qəlbində yerləşir, həmin universitetdə xeyli sayda hay təhsil alır.

https://ccsddinternblog.wordpress.com/intern-biographies/2015-2016-intern-biographies/?fbclid=IwAR2iavV6-UjDnroq25-nVZEIwjtGWHbZWCEROGMCnnHM-4D2Tk_emyflyfl

Odur ki, Erməni Tələbə Assosiasiyasına mənşəcə hay olmayan birinin başçılıq etməsi mümkün deyil. Lakin Kristinanın soyadının "yan" sonluğu ilə bitməməsi onun ailəsinin ABŞ-da çoxdan məskunlaşdığını söyləməyə əsas verir. Hətta bunun əksini fərz etsək və Puşaunun mənşəcə erməni olmadığını (hərçənd buna lüzum yoxdur) düşünsək belə, onun erməni diasporunun təsirində olması faktı öz əhəmiyyətini itirmir. Belə ki, ABŞ-dakı erməni tələbələr assosiasiyaları diasporun beyin mərkəzi sayılan Erməni Araşdırmaları İnstitutunun bir növ gənclik qolları kimi fəaliyyət göstərir. Ayrıca, Kristinanın sosial şəbəkələrdə, açıq internet resurslarında yazdığı ermənilərə dəstək mesajları bir yana, onun başçılıq etdiyi tələbə təşkilatının qondarma "erməni genosidi" ilə bağlı Cənubi Kaliforniya Universitetində təşkil etdiyi aksiya görünən dağa bələdçi axtarmağa yer qoymur.

Bir ayağı Gürcüstanda, bir ayağı Los-Ancelesdə olan Kristina heç də sıradan bir aktivist təsiri bağışlamır. O, Gürcüstanın eks-prezidenti Saakaşvili ilə yaxın dostdur, öz dostunu müdafiə məqsədi ilə zaman-zaman aksiyalar təşkil edib. Kristina, həmçinin müxtəlif xarici kütləvi informasiya vasitələrində siyasi ekspert kimi çıxışlar edir, demokratikləşmə prosesinə dəstək adı altına layihələr icra edir, həmin layihələr əsasən Gürcüstanda, Ukraynada "inqilabi proses"lər üçün gənclərin fəallaşdırılmasına xidmət edir. Hər halda, onun okeanın o tayından varıb, Tbilisə gəlib yaşaması, tez-tez Odessaya getməsi, gedərkən özü ilə xeyli sayda cavanı başına yığması arxasında ciddi maliyyə təminatının olduğunun ifadəsidir. Bu cür yüksək maliyyə dəstəyinin isə ABŞ-dakı erməni diasporunun və Saakaşvilinin dostu Corc Sorosun fondu tərəfindən verildiyini təxmin etmək çətin deyil. Heç şübhəsiz, belə bir yüksək hazırlıqlı adam nə ABŞ xüsusi xidmət orqanlarının, nə də Ermənistan kəşfiyyatının diqqətindən, nəzarətindən kənarda qala bilməz. ABŞ məlum, Qafqaza Qafqaz əsilli əməkdaşlarını göndərir. Bəs, necə düşünürsünüz, Kaliforniyada erməni diasporunun fəal nümayəndəsi olan cazibədar bir xanımla Ermənistan kəşfiyyatı bağ qurmamış ola bilərmi? Əlbəttə, yox! Odur ki, artıq Azərbaycan xüsusi xidmət orqanları hərəkətə keçməli, Aslan İsmayılov və onun oğlunun Cənubi Kaliforniya Universitetində Erməni Tələbələr Assosasiyasının lideri olmuş, Saakaşvilinin də qatıldığı inqilabi layihələrə Azərbaycan və azərbaycanlıların cəlb edilməsində hansı rol aldıqları araşdırmalıdır.

Fotolarda Kristina Puşaunun Erməni Tələbə Assosiasiyasına rəhbərlik etdiyi dönəmlərdə keçirdiyi tədbirlər əks olunub.

***Taleh Şahsuvarlı***
***AzNews.az xəbər portalının Baş redaktoru***

# Paşinyanın siyasi korluğu və karlığı ifliclə nəticəsini tapacaq

*Ermənistan ictimaiyyəti və KİV-ləri ayağa qalxır*

***Ermənistan mətbuatı baş nazir Nikol Paşinyanın bütün sferalarda ciddi uğursuzluqlara uğraması barədə yazılarını səngitmir. Əksinə, erməni baş nazirinin "məxməri inqilab"ından sonra ölkədə baş verən olayların hər biri incələnərək, bütövlükdə, dövlətçiliyin nə qədər böyük təhlükə altında qalması barədə reallıqlar ictimailəşdirilir.***



Erməni siyasi analitik yazarı Varqdes Sarqsyanın "ter.am" saytındakı siyasi məqaləsi diqqətimizi cəlb etdi. Beləliklə, erməni müəllif yazır ki, N.Paşinyan hakimiyyətə yolları bağlamaqla gəldi və baş nazirliyinin ötən müddətində, dövlət və xalq qarşısında bütün qapıları bağlamağa imkan tapdı. SİTAT: "Belə bir geosiyasi vəziyyətdə, çətin regionda, başa çatmamış müharibədə biz dalana dirənmiş situasiyaya çoxmu dözməliyik, məgər bizim ölkədə gözləmək üçün resurslar bu qədərmi çoxdur? Biz nə qədər Paşinyanın üzərində dayanmaq istəməsək də, ölkədə minlərlə problem və minlərlə cavabdeh olmasına baxmayaraq, bütün hallarda alınmır. Çünki il yarım ərzində, hakimiyyəti institusional kimi formalaşdırmaq mümkün olmadı, belə ki, hər kəs baş nazirin iradəsi və istəyindən asılı olmayaraq, səlahiyyətinə uyğun qanun çərçivəsində öz işi ilə məşğul olmalıdır. Lakin indiki hakimiyyəti, özündə bir şəxs tərənnüm edir ki, o, həmin hakimiyyətin gücünün xalq olduğunu bəyan etmişdi. Lakin xalqın inamı aşağı düşürsə, yaxud səndələyirsə, nəticədə, hakimiyyət qeyri-stabil və qorxaq şəkildə şoka düşür".

### "Təsəvvürünüzə gətirə bilərsinizmi ki, ölkədə nə baş verəcək?"

Erməni müəllif Amulsar yatağı ətrafında baş verən məsələyə də toxunaraq, digər bir maraqdoğurucu məsələyə nəzər salıb. "Axı necə baş nazirin üzərində dayanmayaq ki, onun komandasından olan deputat Amulsarın istifadəyə verilməsinə qarşı çıxır və onu məcbur edirlər ki, mandatını yerə qoysun, hətta bunu nəyə görə etdiyini də danışmasın" deyə V.Sarqsyan öz yazısında bildirib.

Müəllif digər bir məsələyə də toxunub - hakimiyyət hesabına xarici ölkələri gəzən iqtidar deputatlarına... "Bizim ölkədə hər şey tərsinədir: baş nazir öz komandadakılarına deputat mandatları verib və onları həyatdan zövq almağa çağırıb, dünyanı dövlət pulları, daha dəqiq desək, bizim vergilərimiz hesabına gəzmək, lakin lazım olduğu anda, ona canla-başla itaət etmək, əks halda, onlar öz mandatlarını bütün imtiyazları ilə birgə itirəcəklər" deyə V.Sarqsyan yazır.

O, qeyd edir ki, erməni ictimaiyyətində bir qəhrəman və anti-qəhrəman mövcuddur: "Əgər bu adam hər hansı bir səbəb üzündən qarşısındakı öhdəlikləri həll edə bilməzsə, təsəvvürünüzə gətirə bilərsinizmi ki, ölkədə nə baş verəcək?"

### "Bu balaca "bonapartcığı" Napoleon Bonapartla eyni səviyyədə tutmaq günah olardı"

"Onun komandası hakimiyyəti əldə saxlaya bilməyəcək" deyə yazan erməni müəllif, həm də onu qeyd edir ki, nəzarətdən çıxmış proseslərdən sonra ölkə idarəolunmaz vəziyyətə düşəcək: "Paşinyanın qeyri-qanuni və şəxsi qərarına görə, o, insanları öz əlində alətə çevirdi və parlamentə qarşı göndərdi, sonradan eyni stillə məhkəmələrlə də davrandı, lakin sonradan başa düşdü ki, bu "alət" daha əvvəlki güc kimi onun əlində deyil və indi Amulsar olayında həmin "alət", artıq ona qarşı çıxış etdi, özü də onun öz şüar və fəaliyyət stili ilə. Lakin bu balaca "bonapartcığı" Napoleon Bonapartla eyni səviyyədə tutmaq günah olardı. Axı gərək tarixin verdiyi dərsləri də xatırlayasan".

Beləliklə, Napoleon Bonapartın, dünyanı fəth etməyə qadir bir sərkərdə kimi, sonda necə uduzmağını xatırladan müəllif N.Paşinyanın da son anda rüsvayçı məğlubiyyətə düçar olacağını proqnozlaşdırır. Əbəs deyil ki, məqalənin əvvəlində də, qeyd etdiyimiz kimi, artıq Paşinyana yaxın, bir neçə KİV-lər istisna olmaqla, Ermənistanın, demək olar ki, bütün mediası, sosial şəbəkələri və o cümlədən, ictimai-siyasi xadimləri ölkənin nə qədər sürətli templə iflasa uğraması, xalqın çıxılmaz vəziyyətdə qalması, daxili və xarici siyasətin məhv olması, dövlətçiliyin itirilməsi təhlükəsinin astanada dayanması barədə bar-bar bağırırlar. Görünür, N.Paşinyanda ciddi siyasi korluq və karlıq xəstəliyi yaranıb və növbəti zərbəsi ifliclə başa çatacaq...

**Rövşən RƏSULOV**



# YAP Masallı rayon təşkilatı ərazi ilk partiya təşkilat sədrlərinin iştirakı ilə görüş keçirilib

Dünən YAP Masallı rayon təşkilatının qərargahında ərazi ilk partiya təşkilat sədrlərinin iştirakı ilə görüş keçirib. Görüşdə çıxış edən YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev cari ilin sonunda ölkəmizdə növbəti bələdiyyə seçkilərinin keçiriləcəyini deyərək, partiyamızın bu siyasi kampaniyaya ciddi şəkildə hazırlaşdığını diqqətə çatdırıb. S.Əliyev bələdiyyə seçkilərinə hazırlıq işlərinin yüksək səviyyədə qurulacağını, YAP Masallı rayon təşkilatının inzibati binasında seçki qərargahının yaradılacağını və bu işlərdə ilk partiya təşkilatlarının səfərbər olunmasının vacibliyini qeyd edib. Seçki məntəqələrində məşvərətçi və müşahidəçilərin seçilməsi istiqamətində işlərə başlanıldığını bildirib. Namizədlərin müəyyən olunmasında partiya sıralarında xüsusi fəallıq göstərən gənclərə və qadınlara üstünlük veriləcəyini vurğulayıb. O, qeyd edib ki, YAP Masallı rayon təşkilatı seçkilərə hazırlıqla əlaqədar YAP Mərkəzi Aparatının Qərargahında keçirilən müşavirədə Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədrinin müavini - YAP İcra katibi Əli Əhmədovun tövsiyə və tapşırıqlarına əsasən, uyğun addımlar atacaq, həmişə olduğu kimi, bu seçkilərdə də partiyamız qalib partiya olaraq böyük nailiyyətlərə nail olacaq.

Rayon təşkilatının sədri, həmçinin, bildirib ki, mətbuat bütün cəmiyyətlərdə, o cümlədən, Azərbaycan cəmiyyətində söz, fikir və ideya azadlığının həyata keçirilməsində əhəmiyyətli rol oynayan vasitələrdən biridir: "Seçkilər yaxınlaşdıqca müstəqil Azərbaycanın inkişafını istəməyən qüvvələr dövlətimizə qarşı qarayaxma kampaniyası apararaq ictimaiyyətdə çaşqınlıq yaratmağa çalışırlar. Azərbaycan gücləndikcə, daxildəki "5-ci kolon" və xaricdəki mühacirlər adı ilə fəaliyyət göstərən satqınlar ölkəmizə qarşı şər-böhtan kampaniyasına başlayırlar. Onlar xaricdəki antiazərbaycançı mərkəzlərin sifarişlərini yerinə yetirərək, alətə çevrilirlər. Azərbaycan cəmiyyəti yetkin, intellektual cəmiyyətdir və bu kimi dairələr ölkəmizdə dəstək qazana bilməyəcəklər. Ona görə ki, ölkə vətəndaşları həmin dairələrin əməllərini qətiyyətlə pisləyir və onların avantürist çağırışlarına "yox" deyirlər".

**R.KAMALQIZI**

# YAP Xaçmaz rayon təşkilatının ərazi ilk partiya təşkilatı sədrlərinin iştirakı ilə tədbir keçirilib



Dünən YAP Xaçmaz rayon təşkilatının ərazi ilk partiya təşkilatı sədrlərinin iştirakı ilə tədbir keçirilib. Tədbiri giriş sözü ilə YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev açaraq, Yeni Azərbaycan Partiyası Mərkəzi Qərargahında rayon təşkilatı sədrlərinin iştirakı ilə keçirilən müşavirədə ilk təşkilatlar qarşısında mühüm vəzifələrin qoyulduğunu bildirilib: "Müşavirədə bələdiyyə seçkilərinə hazırlıqla əlaqədar Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - YAP İcra katibi Əli Əhmədov qarşıdan gələn bələdiyyə seçkilərinə hazırlıqla bağlı tapşırıq və tövsiyələrini verdi. Xüsusilə, ilk təşkilatlarda təşkilatlanma işinin gücləndirilməsi, partiya fəallarının gücündən səmərəli istifadə edilməsi, partiyaya qəbulla bağlı yeni kriteriyalar, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində, ölkəmizin inkişaf səviyyəsinin kütləyə çatdırılmasında fəal təbliğatçı olmaları ən vacib məsələdir. Və hər bir partiya üzvü bu işdə daha məsuliyyətli, daha fəal olmalı, Prezidentimiz ətrafında six birləşməli, yad ünsürlərə qarşı mövqeyimizi ortaya qoymalıyıq".

N.Ağayev, həmçinin, son günlər Azərbaycanın ictimai-siyasi həyatında mühüm tarixi hadisələrə də toxunaraq, 2017-ci il 14 sentyabrda Azərbaycanın müasir tarixində ən mühüm hadisə olan "Yeni Əsrin Yeni Müqaviləsi" və həmçinin, 20 seyntyabr "Əsrin Müqaviləsi"nin 25 illiyi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən düzgün neft strategiyasının uğurla həyata keçirilməsinin parlaq təzahürü olduğunu bildirib. Rayon təşkilatı sədri Ulu Öndər Heydər Əliyevin dahiyanə siyasəti nəticəsində, Qərbin iri neft şirkətləri ilə uğurlu danışıqlar aparılaraq, 1994-cü il sentyabrın 20-də bütün dünyada "Əsrin Müqaviləsi" adı ilə tanınan neft kontraktlarının imzalandığını vurğulayıb. "Yeni Əsrin Müqaviləsi"nin "Əsrin müqaviləsi"nin davamı və tarixi əhəmiyyətindən danışan N.Ağayev bu sazişin müstəqil Azərbaycanın inkişafında mühüm rolunu söyləyib.

Tədbirdə YAP Xaçmaz rayon təşkilatının sədr müavini Abasyar Heydərov, Çiləgir kənd ərazi ilk partiya təşkilatının sədri, şəhid atası Hacıağa Yəhyayev çıxış edərək sözügedən məsələlərə münasibətlərini bildirdilər.

**RƏFİQƏ HÜSEYNOVA**

# Taleh Şahsuvarlıdan hüquq-mühafizə orqanlarının rəhbərlərinə Aslan İsmayılovla bağlı MÜRACİƏT

Aslan İsmayılovun və onun oğlunun Kristina Paşuanın timsalında erməni diasporu ilə açıq və təkzibolunmaz əlaqələri müvafiq dövlət orqanları tərəfindən araşdırılmalıdır



AzNews.az xəbər portalının baş redaktoru Taleh Şahsuvarlı üç dövlət qurumuna sosial media hesabı vasitəsilə müraciət edib. SİA T.Şahsuvarlının müraciətini təqdim edir:

"Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov cənablarına!

Azərbaycan Respublikasının Ədliyyə naziri Fikrət Məmmədov cənablarına!

Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin rəisi Əli Nağıyev cənablarına!

Hörmətli Baş prokuror!

Hörmətli Nazir!

Hörmətli DTX rəisi!

Mən, Şahsuvarov Taleh Novruz oğlu 1995-ci ildən etibarən jurnalistika sahəsində fəaliyyət göstərirəm. Hazırda Azərbaycanda ən oxunaqlı saytlardan biri olan AzNews.az xəbər portalının rəhbəriyəm. Portalımız Azərbaycan prezidenti İlham Əliyevin siyasi kursunu ardıcıl müdafiə edən informasiya resurslarından biridir və kollektivimiz öz fəaliyyətində hər zaman milli maraqlarımızı ön planda tutur. Sizə müraciət etməkdə məqsədim diqqətinizi milli maraqlarımıza, ərazi bütövlüyümüzə və dövlət təhlükəsizliyimizə birbaşa təhdid yaradan olduqca önəmli bir fakta cəlb etməkdir.

Vaxtilə Azərbaycanda vəkillik fəaliyyəti ilə məşğul olmuş, fəaliyyətində yol verdiyi nöqsanlara görə, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvlüyündən xaric edilmiş Aslan İsmayılov bu günlərdə öz Facebook səhifəsində bir məlumat paylaşdı. Həmin məlumatda bildirilirdi ki, Gürcüstanda "Yeni Liderlər Təşəbbüsü" adlı bir layihə həyata keçirilir və həmin layihənin rəhbəri Kristina Puşau adlı ABŞ vətəndaşı, Azərbaycan üzrə koordinatoru Ziyəddin Aslan oğlu İsmayılovdur. Bu layihə ilə bağlı müxtəlif kütləvi informasiya vasitələrində məlumatlar dərc olunub. O cümlədən Aslan İsmayılovun oğlu Ziyəddin İsmayılov da sosial şəbəkədə Kristina Puşau ilə birgə çəkilmiş şəkillərini paylaşaraq layihədə koordinator olaraq iştirak etdiyini təsdiqləyib.

Mən bu barədə jurnalist araşdırması apardım və məlum oldu ki, layihənin rəhbəri Kristina Puşau 2012-ci ildə ABŞ-ın Los-Anceles şəhərində yerləşən Cənubi Kaliforniya Universitetinin bakalavr pilləsini bitirib. Kristina Puşau orada təhsil alarkən universitetdəki Erməni Tələbələr Assosiasiyasının rəhbəri olub. Cənubi Kaliforniya Universiteti Erməni Tələbələr Assosiasiyasının Facebook səhifəsi mövcuddur. Bu səhifəyə göz gəzdirdikdə məlum olur ki, həm Kristina Puşaunun rəhbəri olduğu müddətdə, həm də ondan sonra təşkilat Azərbaycan və Türkiyə əleyhinə bir sıra aksiyalar təşkil edib. Həmin təşkilat ABŞ-dakı erməni diasporunun beyin mərkəzi olan Erməni Araşdırmalar İnstitutu ilə sıx əməkdaşlıq etməklə qondarma "erməni genosidi" ilə bağlı universitetdə çox sayda tədbirlər keçirib, o cümlədən 2016-cı ildəki "Aprel döyüşləri"ndə Azərbaycana qarşı açıq təbliğat aparıb.

Odur ki, Cənubi Kaliforniya Universitetindəki Erməni Tələbə Assosiasiyasına rəhbərlik etmiş şəxs olaraq Kristina Puşaunun həyata keçirdiyi layihənin rəsmi məqsədi nə olursa-olsun, mahiyyətcə Azərbaycan Respublikasının milli maraqlarına, dövlət təhlükəsizliyinə və ərazi bütövlüyünə zidd olduğu aşkardır. Maliyyə qaynaqları qaranlıq olan bu layihənin ABŞ-dakı erməni diasporunun maraqlarına xidmət etməsi, o cümlədən Ermənistan xüsusi xidmət orqanlarının dəstəyi ilə reallaşdığını da təxmin etmək çətin deyil.

Bütün hallarda hesab edirəm ki, Aslan İsmayılovun və onun oğlunun Kristina Paşuanın timsalında erməni diasporu ilə açıq və təkzibolunmaz əlaqələri müvafiq dövlət orqanları tərəfindən araşdırılmalı və bu barədə cəmiyyətə rəsmi açıqlama verilməlidir.

Araşdırma üçün mənə məlum olan və saytımızda yayınlanmış faktları qaynaqları ilə birgə yüksək diqqətinizə təqdim edirəm: https://www.aznews.az/news/political_debate/238330.html

# Hüquq müdafiəçiləri mediaya müraciət etdilər



Azərbaycanda uzun illərdir fəaliyyət göstərən və Hüquq Müdafiə Təşkilatlarının Monitorinq Qrupunda birləşmiş hüquq müdafiəçiləri - Çingiz Qənizadə, Novella Cəfəroğlu, Səidə Qocamanlı və Səadət Bənənyarlı mətbuat vasitəsi ilə sentyabrın 20-də keçirəcəkləri "Sosial şəbəkələrdə söyüş, təhqir və böhtana YOX deyək" adlı dəyirmi masaya Azərbaycanın kütləvi informasiya vasitələrinin (saytlar) rəhbərlərini, jurnalistləri, hüquq müdafiəçilərini, QHT nümayəndələri və Azərbaycan ziyalılarını dəvət ediblər.

Həmin müraciəti olduğu kimi təqdim edirik:

"Dəyərli dostlar,

Sizi, Hüquq Müdafiə Təşkilatlarının Monitorinq Qrupunun təşkilatçılığı ilə sentyabrın 20-də keçiriləcək "Sosial şəbəkələrdə söyüş, təhqir və böhtana YOX deyək" adlı dəyirmi masada iştirak üçün Azərbaycanın kütləvi informasiya vasitələrinin (saytlar) rəhbərlərini, jurnalistləri, hüquq müdafiəçilərini, QHT nümayəndələri və Azərbaycan ziyalılarını bu tədbirə dəvət edirik.

Tədbirin keçirilməsində əsas məqsədimiz son dövrlərdə sosial şəbəkələrdə, xüsusi ilə "Youtube" saytında heç bir əxlaqi dəyərlərə sığmayan söyüş, təhqir və böhtan xarakterli çıxışların şahidi oluruq. Xüsusi ilə də həmin çıxışlara münasibət bildirən və şərh yazan sosial şəbəkə istifadəçiləri dilə gətirilməsi belə mümkün olmayan söyüş ifadələri işlədirlər.

Milli-mənəvi və əxlaq dəyərlərimizdən uzaq olan bu cür halların belə davam etməsi hiddət doğurur və belə hesab edirik ki, bu yolverilməzdir. Bu cür qarşılıqlı söyüş və təhqirlər gənclərimizin, xüsusi olaraq məktəbli uşaqların psixologiyasına mənfi təsir göstərir. Gəlin birləşək və bu cür hallara YOX deyək!!!

Tədbir 20 sentyabr, 2019-cu il tarixdə saat 11:00-dan 13:00-dək Bakı şəhəri, Ağ şəhər, Boulevard Hotel Baku (Bulvar otel), Tağıyev Zalında (1) keçiriləcək".

# Xəbərdarlıq: Bu gün əsl yay havası olacaq



Ölkə ərazisində sentyabrın 19-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava yağmursuz olacaq. Cənub-qərb küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəzlənəcək, arabir güclənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 18-21°, gündüz 27-31° isti, Bakıda gecə 19-21°, gündüz 29-31° isti olacaq. Atmosfer təzyiqi norma daxilində - 760 millimetr civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam saatlarında bəzi dağlıq rayonlarında şimşək çaxacağı, yağış yağacağı ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 30-35° isti, dağlarda gecə 10-15°, gündüz 21-26° isti olacağı ehtimal edilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, sentyabrın 19-da Abşeron yarımadasında gilavar küləyinin arabir güclənəcəyi gözlənilir ki, bu da meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.

Naxçıvan Muxtar Respublikasında hava yağmursuz keçəcək. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 11-16°, gündüz 30-35° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 21-26° isti olacağı gözlənilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 27-32° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam saatlarında bəzi şərq rayonlarında şimşək çaxacağı, yağış yağacağı ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, arabir sürətlənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 25-30° isti, dağlarda gecə 7-12°, gündüz 19-24° isti olacağı proqnozlaşdırılır.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 30-35° isti olacağı ehtimal edilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər dağlarda duman, çiskin olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 17-21°, gündüz 27-32° isti, dağlarda gecə 13-18°, gündüz 23-28° isti olacağı ehtimalı var.

# "Electricite de France": Framatome filialı nüvə reaktorunun hissələrinin istehsalında prosedura düzgün riayət etməyib



Fransanın "Electricite de France" (EDF) elektrik şirkəti istismarda olan bəzi nüvə mərkəzlərinin reaktorlarının hissələrinin istehsalında problemlər olması ilə bağlı məlumat yayıb. AZƏRTAC xəbər verir ki, 19 nüvə mərkəzində 58 reaktor istismar edən "EDF" şirkəti Framatome filialının prosedurlara düzgün riayət etmədiyini bildirib. Filialın istehsal etdiyi və artıq istismara verilmiş 16 reaktordan altısında aparılan yoxlamalar göstərib ki, buxar generatorlarında aparılan qaynaq işləri keyfiyyətli deyil.

Buna baxmayaraq, "EDF" həmin generatorların dərhal dayandırılmasına lüzum olmadığını, hələ ki, işə yararlı olduğunu qeyd edib. Dövlət Nüvə Təhlükəsizliyi Təşkilatı (ASN) qarşıdan gələn həftə ərzində zərurət olduğu halda aidiyyəti reaktorların (Blayais 3 və 4, Bugey 3, Fessenheim 2, Dampierre-en-Burly 4 və Paluel 2 saylı) dayandırılması ilə bağlı qərar verməlidir.

# Uğursuzların yeni mitinq qovğası

## Və ya ziyanlı ilə yalançının davası

***Siyasətçinin ən önəmli məcazlarından biri səhvlərdən nəticə çıxarmaq, həmin səhvləri təkrarlamamaq bacarığıdır. Əgər siyasətçi səhvləri sıralayırsa və ən pisi, onları təkrarlayırsa, bu, primitiv düşüncənin, hədsiz ambisiyaların və gerçəyi anlamamağın, şərtlərin diqtəsini başa düşməməyin, marazm həddinə yüksəlmiş ambisiyalarla natamamlıq kompleksinin göstəricisidir.***

Adı müxalifətin olan, əslində isə, ermənipərəst dairələrin ideyası əsasında yaradılmış "Milli Şura"nın antimilli maraqlara xidmət etməsi bəlli olsa da, qarşıdakı bələdiyyə seçkiləri ərəfəsi, bu qurum yenə də həyasızlığından əl çəkmir. Çünki bu oyuncaq qurumun yaradılmasında əsas məqsəd, heç də özlərinin dedikləri kimi, demokratik seçkilərin keçirilməsi deyilmiş. Bunu müxalifət nümayəndələri də təsdiqləyirlər ki, bu qondarma qurum qaranlıq məqsədlərə xidmət etmək üçün yaradılıb. Elə bu günlərdə mitinq keçirmək istəmələri, bunu bir daha sübut edir. Bu, o qurumdur ki, hələ seçkilərin keçirilməsinə 3 ay vaxt qalmasına baxmayaraq, seçkinin qeyri-demokratik keçiriləcəyi haqqında əsassız uydurmalar yayırlar və bu gün də bu çirkin niyyətlərindən əl çəkmirlər. Çünki artıq indidən uğursuzluqlarını görürlər.

### Aydın Mirzəzadə: "Dağıdıcı müxalifət növbəti dəfə gücsüzlüyünü nümayiş etdirəcək"



Millət vəkili Aydın Mirzəzadə "Milli Şura"nın mitinqinə münasibət bildərərək deyib ki, mitinq keçirmək onların hüququdur: "Milli Şura"nın bu cür mitinq keçirməsi Azərbaycanda demokratiyanın olmasının göstəricisidir. Bir məsələ də var ki, belə tədbirlərdə hər dəfə daha az nümayişçi iştirak edir. İsrarla özünün gücsüzlüyünü, elektorat bazasının olmadığını nə üçün sübut etmək istəyirlərsə, bu, mənə aydın deyil. Yenə də bir neçə yüz adam gələcək və ümumi şüarlar səsləndiriləcək. Bununla da, bələdiyyə seçkiləri öncəsi dağıdıcı müxalifət növbəti dəfə öz gücsüzlüyünü nümayiş etdirəcək".

### Adil Qeybulla: "Milli Şura" xarici ölkələrdəki anti-Azərbaycan dairələrin ideyası əsasında yaradılan xəyanətkar qurumdur"



"Milli Şura"nın mitinq qərarına ciddi narazılıq edən Müsavat partiyası divanının sabiq üzvü Adil Qeybulla bildirib ki, "Milli Şura"nın əsas məqsədi yalan vədlər verdikləri insanların başını müxtəlif bəhanələrlə qatıb, vaxt qazanmaqdır: "Milli Şura"nın mitinq keçirməkdə məqsədi nədir? Kimə etiraz edirlər? Mitinq seçkidən sonra keçirilində deyilir ki, seçkilər saxtalaşdırılıb və xalqı ayağa qalxmağa çağırırıq. İndiki situasiyada niyə mitinq keçirilir? Bu, nəyi göstərir? Kimə və nəyə etiraz edilir? Çünki "Milli Şura"nın strategiyası yoxdur. Mitinqin keçirilməsi qərarı bunu bir daha sübut edir. Hadisələrin gedişi onu göstərir ki, "Milli Şura"da və ona yaxın olanlar arasında hakimiyyət ehtirası ilə alışıb-yanan qüvvələr də var".

A.Qeybulla "Milli Şura"nı xəyanətkar adlandırıb. Həmin qurumun xarici ölkələrdəki anti-Azərbaycan dairələrin ideyası əsasında yaradılması, artıq özünü doğrultmaqdadır. A.Qeybullanın qənaətinə görə, başqa dövlətin xüsusi xidmət orqanları ilə, digər xüsusi güc strukturlarının orqanları ilə separat əlaqələr dünyanın hər yerində Vətənə xəyanət kimi dəyərləndirilir: "Bu, cinayət tərkibli bir hadisədir, məsələ ictimailəşdirilməlidir, bu məsələlərdə cavabdeh olan şəxslər xalqın qarşısında cavab verməlidirlər. Çünki bəzi məsələlərin konturları görünməkdədir".

### Sərdar Cəlaloğlu: "Əli Kərimli kimi saxtakar satqın hansı üzlə mitinq keçirir? Bu, həyasızlıqdır"



Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu "Milli Şura"nın seçki ərəfəsi keçirmək istədiyi mitinqə münasibət bildirərək, indiki halda, bu aksiyanı fürsətçilik kimi qiymətləndirib: "Biz görürük ki, 25 ildir Azərbaycandakı vəziyyəti pisləyən beynəlxalq təşkilatlar demokratiyaya heç bir ciddi dəstək verməyib, yalnız mövqe bildiriblər. Bu da, onu göstərir ki, məqsəd heç də demokratiyanı müdafiə etmək deyil, demokratiya adı altında öz maraqlarını təmin etməkdir. İndiki halda "Milli Şura"nın keçirdiyi aksiyalar, məhz həmin anti-Azərbaycan qüvvələrə sərf edəcək". S.Cəlaloğlu "Milli Şura"nın həmişə siyasi maraqlarını ortaya qoyduğunu bildirib: "Bu gün kifayət qədər anti-Azərbaycan mövqeyində olan dairələr var ki, ölkədəki nöqsanları qabartmaqda məqsədi heç də demokratik dəyərlər deyil. Onlar, sadəcə, ölkənin imicinə zərbə vurmaq niyyətindədirlər".

S.Cəlaloğlu maliyyə imkanlarının da mitinq keçirməyə cavab vermədiyini etiraf edib. Eyni zamanda, "Milli Şura"nın mitinqinə qoşulmaqla bağlı bildirib ki, əgər ADP-dən kimsə həmin mitinqlərə qatılmaq istəsə, partiya məsuliyyət daşımır: "Saxta adamın xalq arasında heç bir dəstəyi yoxdursa, hansı üzlə mitinq keçirir? Bir də, bu günə kimi, "Milli Şura"nın və AXCP-nin keçirdiyi mitinqlər göstərir ki, cəmiyyətdə ən güclü yeganə müxalif qüvvə olmaları və xalqın onlara böyük dəstək nümayiş etdirdiyi barədə dedikləri də yanlışdır, yalanlarla heç nəyə nail olmaq olmaz".

ADP sədri, həmçinin, Müsavat partiyası ilə AXCP arasında mitinqlə bağlı ziddiyyətin olomasına da münasibət bildirib: "Belə ki, "Milli Şura" və AXCP-nin ardınca Müsavatın da mitinq keçirmək istəyinə düşmənsini rəqabət hissi (əslində, düşmənçilik və paxıllıq hissi - R.H.) ilə əlaqələndirən S.Cəlaloğlu bildirib ki, əgər "Milli Şura"nın mitinqinə on min adam çıxsa belə, buna "Milli Şura"nın elektoratı adını vermək doğru deyil. Eləcə də, Müsavat da, həmçinin..."

Beləliklə, düşərgə liderləri özləri də radikal müxalifətin mitinq "eyforifası"na inanmırlar. Ona görə də, mitinq-filan keçirməsələr, daha yaxşı olardı. Çünki bunlar mitinq keçirdikcə, paxırları daha da üzə çıxır və ifşa olurlar. Nəticədə, cəmiyyət bələlərindən iyrənir. Yenə mitinq, yenə boşboğazlıq xülyaları, nəticə uçurum.

***R.HÜSEYNOVA***

# Əli Kərimli və Cəmil Həsənli siyasi riyakarlıqlarının qurbanı olacaqlar

***Cəmiyyətdə qondarma qurum kimi tanınan "Milli Şura" növbəti dəfə aksiya keçirmək arzusu ilə sosial şəbəkələrdə statuslar paylaşır. Söz yox ki, aksiyanın planlaşdırılması qondarma qurumun təsisçilərinin beyninin məhsulu deyil. Onları uğursuz görünən aksiyanın keçirilməsinə təhrik edən xarici maraqlı dairələr var. Söhbət etdiyimiz müsahiblərimiz də, o fikirdədirlər ki, müxalifət xarici maraqlı dairələrdən maddi və mənəvi baxımından asılıdır.***

### AGAAMC-in sədri, fəlsəfə doktoru İlqar Orucov: "Milli Şura" adlı qaragüruh insanları iyrənc söyüşlərlə təhqir etməkdədirlər"



- "Milli Şura"nın mitinq keçirmək arzusu, onların xaricdən aldıqları sifarişlə bağlıdır. Budəfəki aksiya şousu ilə, artıq bir neçə gündür ki, sosial şəbəkələrdə paylaşımlar edirlər. "Milli Şura" adlı qaragüruh və onun ideoloqlarının trollar dəstəsi, bu aksiyanın uğursuz cəhd olması barədə arqument ortaya qoyanları, tərbiyələrinə uyğun formada iyrənc söyüşlərlə təhqir etməkdədirlər. Mənim "facebook"da istifadə etdiyim şəxsi "inboks"uma Əli Kərimli barədə tənqidi fikirlərimə görə təhqirlər, böhtanlar və söyüşlər yazmaqda davam edirlər. Bütün bunlar, bir daha onu sübut edir ki, bu adamlar sosial bazaları olmayan bir qrup başıpozuq dəstədir. Kimdir onları dəstəkləyən? Kimdir onların aksiyasına qoşulan? Təbii ki, özlərindən və aldatdıqları bir qrupdan başqa, heç kim. Hər hansı bir aksiyanı zəruri edən, onun keçirilməsi üçün lazım olan zərurətin olması iə şərtlənir. Məsələ ondadır ki, bu gün ölkədə mövcud iqtidarın siyasətində insanlarımızı narazı salan hansısa məqamlar yoxdur. O səbəbdən, hər hansı aksiya üçün də zəmin yoxdur. Azərbaycan iqtidarı hər zaman xalqa ünvanlanmış sosial siyasət həyata keçirir və son bir ildə həyata keçirilən islahatlar, qəbul edilmiş qərarlar, sərəncam və fərmanlar, qanunvericiliklə bağlı dəyişikliklər hakimiyyətin reallaşdırdığı sosial inqilab idi və bizim uğursuz "Milli Şura" bu islahatların səbəbi qismində belə, öz uğursuz aksiyalarını və arqumentsiz tələblərini göstərməyə cəhd edirlər. Onlar anlamırlar ki, "mən hər bir azərbaycanlının prezidenti olacağam" şüarı ilə prezident seçkilərinə qatılan dövlət rəhbərimizin həyata keçirdiyi istənilən islahatın təməlində müxalifətin hansısa təzyiqi və görüntü xarakterli siyasi şouları deyil, formalaşmış güclü iqtisadiyyat, siyasi stabillik və vətəndaşla iqtidar arasında mövcud qarşılıqlı inam və etimad dayanır.

### "Palitra" qəzetinin baş redaktoru Namiq Əliyev: "Mitinqlər inkişaf etmiş cəmiyyətlər üçün xarakterik deyil"



- Müasir cəmiyyətlərdə siyasi mübarizə aparmanın çoxsaylı sivil yolları var. Mitinqlər, nümayişlər, küçə yürüşləri kimi mübarizə taktikaları inkişaf etmiş cəmiyyətlər üçün, ya xarakterik deyil, ya da, bu üsullardan həddindən artıq az istifadə edilir. Soruşula bilər ki, Fransa kimi sivil ölkədə "sarı jiletlilər" niyə hər həftə aksiya keçirirlər? Diqqət edin, artıq "sarı jiletlilər" əvvəlki kütləviliyi təmin edə bilmirlər, hərəkat zəifləməyə doğru gedir. Çünki demokratik ölkələrdə idarəetmə, qanunvericilik və s. "küçənin təzyiqi" ilə həyata keçirilmir. Sivil dövlətlərdə siyasi sistem səsvermə, seçkilər və referendum kimi vasitələrlə təkmilləşdirilir. Qardaş Türkiyə siyasətçiləri demiş, "hər şey sandıqda həll olunur" və sandıqdan-seçki qutusundan çıxan nəticəni də xalq qəbul edir. Azərbaycan cəmiyyəti də bu istiqamətdə hərəkət etməlidir, mitinq, nümayiş, küçə yürüşləri dövrünü arxada buraxmaq lazımdır. Tarixi təcrübə də göstərir ki, müəyyən qüvvələr (bunların içində düşmən də ola bilər) çox rahatlıqla mitinqləri idarəolunmaz hala gətirib, xaos və anarxiya vəziyyəti yarada bilərlər. Mitinqdə irəli sürüləcək tələblərə gəldikdə isə, onların da həll olunması üçün başqa metodlar var. Əvvəla, "Qarabağa azadlıq" tələbini digərlərindən ayırmaq lazımdır. Çünki Qarabağ məsələsi Bakıda keçirilən hansısa mitinqlə həll olunası məsələ deyil... Bu barədə dəfələrlə fikir bildiriyimizdən, onları təkrar etməyə ehtiyac duymuruq. "Siyasi məhbus" məsələsinə gəldikdə isə, cəmiyyət şahiddir ki, müxalifətin azadlıqda görmək istədiyi məhbuslar mitinqlərsiz də istəklərinə nail ola biliblər. Tibbi sığorta tələbi isə, təkcə müxalifətə aid deyil, bütün cəmiyyət, o cümlədən, dövlət də bunun tətbiqinə çalışır. Artıq bu sahədə pilot rayonlar seçilib və sürətli iş aparılır. Yaxın gələcəkdə bütün ölkədə tibbi sığorta sistemi tətbiq ediləcək. Eləcə də, digər tələblər mitinqlərdə yox, dəyirmi masalarda, sosial şəbəkələrdə, KİV-lərdə, nəhayət, parlamentdə müzakirə olunub, xalqın və dövlətin maraqlarına uyğun yekun nəticələrə gəlinməlidir. Bir sözlə, problemlərimizin həlli üçün daha sivil metodlar olduğu halda, niyə vaxtı keçmiş mitinqlər və nümayişlər yolu ilə getməliyik?

***GÜLYANƏ***

# Ermənistanda hakimiyyəti tərk edənlərin sayı artacaq

Ermənistan hökümətinin hərəkətləri nə qədər çəkisiz, məntiqsiz və mübahisəli olsa, hakimiyyətdən gedənlərin, Paşinyan hakimiyyətini tərk edənlərin sayı da bir o qədər artacaq. SİA Ermənistana məxsus tert.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bunu "Daşnaksutyun" partiyasının Ali Orqanının üzvü Artur Xaçatryan Milli Təhlükəsizlik Xidmətinin rəisi və polis rəisinin istefasını şərh edərkən deyib. Bundan əlavə, Daşnaktsutyun nümayəndəsi qeyd edib ki, hakim partiya hələ müxalif olduğu dövrdə bildirdiyi mövqeyə hakimiyyətə gəldikdən sonra 180 dərəcə əks mövqe sərgiləyir. O, vurğulayıb ki, hakim partiyanın bu mövqeyi digər məsələlərlə yanaşı Amulsar məsələsinə də aiddir.

Məlumatda bildirilir ki, Artur Vanesyan və Valeri Osipyanın istefaları barədə danışan Artur Xaçatryan deyib ki, Vanesyanın bəyanatına istinad etdikdə aparılan siyasətdə hakimiyyətdaxili narazılıqların mövcud olduğu bəlli olur. Ələlxüsus, "Dur" çağırışı ondan xəbər verir ki, general Vanesyan ölkədə tətbiq olunan kursla heç də razı deyil.

***İnam Hacıyev***

# ARİF MƏMMƏDOV - XƏYANƏT VƏ SATQINLIQ NÜMUNƏSİ



***Azərbaycan xalqının mentalitetində satqınlıq və xəyanət qəbul olunmayan hadisədir. Real həyatda, söz və fikir yaddaşımızda, tarixi hafizəmizin dərinliyindəki hadisələrdə belə xəyanətin və satqınlığın cəzası çox ağır olan bir hal kimi qəbul edilir. Xəyanətin və satqınlığın ömrü az olduğu kimi, onu həyata keçirənlərin də ifşası hər zaman mütləq xarakter daşıyır. Xüsusilə də, bu xəyanət və satqınlıq dövlətə, xalqa, dövlətçiliyə, insanların rifahı və təhlükəsizliyinə qarşı çevrilirsə, bu cür əməllər və onun icraçıları, nəinki ifşa olunmalı, hətta vaxtında layiqli cəzalarını almalıdırlar. Elə uzun müddət Azərbaycan dövlətinin çörəyini yemiş, sonra da ölkəsinə və xalqına qarşı düşmənlərlə eyni cəbhədə yer alan, Avropada oturub dövlətimizin əleyhinə iftiralar atan keçmiş səfir Arif Məmmədov da bu mənada, istisna təşkil etməməlidir.***

Kimdir Arif Məmmədov? Bəlkə də bir çoxlarınız onu Azərbaycan dilində normal danışmağı bacarmayan, "neftayırma" əvəzinə "neftqayırma" deyən, pəltək frazalarla gah "Azərbaycan saatı"nda, gah da "Osmanqızı" kanallarında ağlına deyil, ağzına gələni danışan bir satqın kimi tanıyırsınız. Lakin istəyirəm ki, erməni bulağından su içən bu xəyanətkarın və siyasi riyakarın haqqında daha çox biləsiniz.

A.Məmmədov kimilərin təkcə özləri deyil, onların ailə üzvləri də Azərbaycan dövlətinə və xalqına qarşı xəyanət içərisindədirlər. A.Məmmədovun Azərbaycan xalqına və ölkəmizə nifrəti o qədər böyükdür ki, hətta 15 il müddətində Azərbaycan dövlətini təmsil edən səfir kimi işləyərkən, o, hər dəfə Bakıya gələndə, "Təxminən 20 ildir Avropada normal adamların arasındayam... 3 gün Bakıda oldum və artıq qocaldım..." deyirdi.

Bu cür düşüncə təkcə A.Məmmədova deyil, onun ailəsinin bütün üzvlərinə də aiddir. Elə A.Məmmədovun həyat yoldaşı da, Bakıya qısa səfərləri zamanı bildirirdi ki, savadsız, mədəniyyətsiz "qara" xalqın yaşadığı Azərbaycana heç vaxt qayıtmayacaq.

A.Məmmədovun səpdiyi xəyanət və satqınlıq toxumu onun Cəmil adlı oğlundan da yan ötməyib. Lakin burada fərq ondan ibarətdir ki, Cəmilin atası və anası Azərbaycan xalqına və dövlətinə nifrət edirsə, Cəmil daha irəli gedərək irqçiliyi, antisemitizmi və əyyaşlığı təlqin edir. Satqın A.Məmmədovun oğluna verdiyi tərbiyənin nəticəsidir ki, C.Məmmədov aşkar antisemitdir, İsrailə nifrət edir və bu hisslərini gizlətmir. Atalar da yaxşı deyib ki, valideynin çıxığı ağacda, balası budaq-budaq gəzər...

A.Məmmədov Belçikada diplomatik missiyada olanda belə oğlu atasının çalışdığı ölkəni və oradakı xalqı aşağılayırdı. Sitat: "Sarsaq, murdar, yaramaz belçikalılar məni hirsləndirdilər! Ölkəni sarsaqlıq və axmaqlıq ikiyə bölüb. Belçikalılar o qədər irqçidirlər ki, ölkələrini Fransa, ABŞ və Çin kimi qüdrətli dövlət hesab edirlər".

"Holland və flamand dilləri ən murdar, ən eybəcər, ən iyrənc dillərdir", "İsraili lənətə gəlsin! İsrail şərdir!", "Netanyahu irqçi liderdir!", "Donald Trampın sifətinə əla şapalaq vurardım" kimi fikirlər yazan C.Məmmədov həm də Əli Kərimlinin oğlu Türkel Kərimli kimi əylənməyi, kef çəkməyi çox sevir. Nə qədər etikadan kənar səslənsə də, onun sosial şəbəkə hesabında yazdıqlarından sitatlar gətirməyə məcburam: "Bu gün Audi 8-də qızlarla kef etdim", "Qızların bakirəliklərini itirdiyi anı sevirəm", "Səhərədək qızla yataqda oynadıq" və s.

Gördüyünüz kimi, A.Məmmədov özündən də təhlükəli olan, yəhudilərə nifrət edən, İsrailin məhvini istəyən, avropalıları gerizəkalı, ABŞ prezidenti Donald Trampı "ləyaqətsiz" sayan, qızları, əyyaşlığı, əxlaqsızlığı sevdiyini deyən bir gənc yetişdirib. Məhz C.Məmmədov kimi əyyaş və kütbeyin A.Məmmədovun kimliyi haqqında bizdə əyani təsəvvür yaradır...

Belə bir ailə və oğul sahibi olan A.Məmmədovun əmək fəaliyyəti də fərqli ola bilməzdi. Ona görə də, A.Məmmədov çalışır ki, özü haqqında müsbət imic formalaşdırsın. Amma artıq gecdir...

Bu gün A.Məmmədov "möhtəşəm səfir fəaliyyəti" ilə bağlı cəfəngiyyatlar danışsa da, görünür, Brüsseldə dövlətin kirayə üçün ayırdığı pullarla ipoteka ilə aldığı yaşayış yerini xatırlatmağı unudur. O, eyni zamanda, şəxsi məqsədlər üçün göndərilən, lakin istifadə etməyərək satdığı lüks avtomobilləri də yaddan çıxarır. "Mersedes", "Lexus", "BMW X5" markalı maşınların saxta yollarla satışından, əldə etdiyi 150 000 dolları isə, yəqin ki, xatırlamır.

A.Məmmədov iddia etməyə çalışsa ki, guya onun Bakıda heç bir yaşayış yeri olmayıb və o, burada valideynləri ilə birlikdə yaşayıb, o zaman ondan soruşmaq lazımdır ki, 2010-cu ildə Binəqədi rayonu, Mir Cəlal küçəsindəki mənzilini satıb, 2011-ci ildə Mərdəkanda 1 hektar sahəli ev aldığını da yaddan çıxarıbmı?

Vaxt var idi ki, A.Məmmədov ailə güzəranını yaxşılaşdırmaq, oğlunun eyş-işrət xərclərini qarşılamaq məqsədilə, Azərbaycanın Avropa Şurası nəzdində nümayəndəliyinin vəsaitlərini həyəsizcəsinə mənimsəyirdi. Ayrı-ayrı qurumların hesablarından tədbirlər üçün çıxılan vəsaitlərə görə Arif Məmmədov dəfələrlə səfirliyin 20-25 min avro pulunu bir gündə göyə sovururdu. İstər Brüsselə bağlı, istərsə də Strasbuqla bağlı bu cür faktlar kifayət qədərdir, lakin sizi yormaq istəməzdim.

Sosial şəbəkələrdə şoular nümayiş etdirərək, AND adlı "təlxək" təşkilatı və "Ağ Qərənfillər" hərəkatını yaradan A.Məmmədov Azərbaycanın ünvanına təhqirlər yağdırır, radikal islamçı Taleh Bağırovun müdafiəsinə qalxır, radikal müxalifətçilər - Əli Kərimli və Cəmil Həsənli ilə yaxın dostu, AXCP sədrini isə "lider" hesab edir. Lakin bir zamanlar həmin A.Məmmədov iclaslarda səfir kimi çıxışları zamanı, onları açıq şəkildə qınayıb və avropalı diplomatlar qarşısında ifşa etdiyindən qürurlanırmış.

A.Məmmədov və onun tərəfdaşları üçün şəxsi mənfəət, Qərbdə problemsiz yaşamaq daha üstündür. Onları azərbaycanlı qaçqınların taleyi maraqlandırmır. Ölkənin müstəqil daxili və xarici siyasəti ürəklərincə deyil, çünki onlar üçün tək müqəddəs olan - puldur. "Vətən üçün pis olan, mənə faydalıdır" prinsipi ilə yaşayan A.Məmmədov kimilər şəxsi maraqlarını dövlətin və xalqın maraqlarından üstün tutduqları üçün, mənəvi nöqteyi-nəzərdən, xəyanətkardan və satqından başqa biri deyillər.

Odur ki, A.Məmmədov Ə.Kərimlidən tutmuş S.Osmanqızına və Qənimət Zahidə qədər anti-Azərbaycan təbliğat şəbəkəsinin hər bir üzvü kimi, vaxtaşırı erməni sevgisini nümayiş etdirir. Dəfələrlə şahidi olmuşuq ki, Əli Kərimli kimi A.Məmmədov da Paşinyanın mətbuat xidməti kimi Ermənistanı tərifləyib. Erməni sevgisini göstərən A.Məmmədov, daha irəli gedərək, "erməni şəhid ailələri" ifadəsindən də istifadə edir. Erməni işğalçılarına şəhid deməklə, Azərbaycan şəhidlərinin ruhuna və ailələrinə hörmətsizlik edən A.Məmmədov, bir daha, sıralarında durduğu qrupun Azərbaycan xalqına olan düşmən münasibətini sərgiləyir. Azərbaycan əsgərinə "kloun" deyən, idmançılarımızı isə, meşədən çıxmış heyvana bənzədən Arif Məmmədov şərəfsizliyinin son həddində olduğunu dəfələrlə nümayiş etdirib.

Gördüyünüz kimi, bu da "Milli Şura"nın və AXCP-nin ətrafına topladığı "mədəni demokratlardan" biri. Xaricdə işlədiyi müddətdə mühasibatlıq sənədlərini saxtalaşdıraraq, büdcə xərclərini mənimsəyən, bu vəsaitlərə Brüsseldə ev və maşınlar alan Arif Məmmədov bu gün özünü "vicdanlı adam" kimi qələmə verir. Bu pullar hesabına onun oğlu ABŞ-da təhsil alır. Hərbi xidmət yaşına çatmasına baxmayaraq, o, Azərbaycan Ordusunda xidmət etməyə tələsmir. Bütün bu illər ərzində, Məmmədovun ailə üzvləri bir dəfə də Bakıya gəlməyiblər. Həyatının 24 ilini ailəsilə birlikdə xaricdə yaşayan və ölkədə az müddətdə olan A.Məmmədov Azərbaycanın bugünkü vəziyyətini necə "dərin təhlil" edə bilər? İstirahət zamanı belə o, Azərbaycanda bir həftədən çox yaşamayıb.

İndi siz deyin, "3 gün Bakıda oldum və artıq qocaldım" söyləyən Arif Məmmədov kimilər hakimiyyətə gəlsələr, insanlara münasibətləri necə olacaq? Vətəndaşları meşələrdə yaşamağa məcburmu edəcəklər? Üstəlik də, Əli Kərimli hakimiyyətə gələcəyi təqdirdə, danışığını bilməyən bu başabəla diplomata xarici işlər naziri vəzifəsini söz verib...

***Ramil Vəlibəyov,***
***YAP Nizami RT GB sədrinin müavini, siyasi elmlər üzrə fəlsəfə doktoru***

***P.S.*** *A.Məmmədov eyni zamanda, dostuna xəyanət edəndir. "Oyan" hərəkatından Nahid Cəfərov dələduz Fikrət Hüseynlinin agent ittihamı ilə qarşılaşanda, eləcə də, "Milli Şura"nın sədri C.Həsənli də onun agent olduğunu yazanda, Arif Məmmədov, nəinki bunlara etiraz edib, hətta həmin statusları bəyənib. Bu vəziyyətdən peşman olduğunu və giley-güzar etdiyini ifadə edən Nahid Cəfərov A.Məmmədovu siravi, orta təhsilli cəbhə trolu adlandırıb...*

## Yeni Zelandiyada 3 milyon dollarlıq marixuana müsadirə edilib

Yeni Zelandiya polisi Cənub adasının şimal-qərbində yerləşən Tasman regionunda külli miqdarda marixuana müsadirə edib. Bu barədə sentyabrın 18-də Yeni Zelandiya polisinin rəsmi saytında məlumat yerləşdirilib. Müsadirə edilən marixuananın qara bazarda qiymətinin təqribən 3 milyon dollar olduğu bildirilir.

Polisin narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı keçirdiyi əməliyyat zamanı Tasman regionundakı kəndlərdən birindəki evdə böyük yeraltı bunker aşkarlanıb. Həmin bunkerdə marixuana plantasiyasının salındığı məlum olub. Əməliyyat zamanı plantasiyanın sahibi 63 yaşlı şəxs həbs edilib. Axtarış zamanı külli miqdarda odlu silah da aşkar edilərək götürülüb.



## Başqan olmaq üçün "baş" qan tökən olmaq lazımdır

**RƏFİQƏ**

***Müsavatın növbəti qurultayının keçirilməsi ətrafında baş verənlər partiyadakı qrupları da möhkəm hərəkətə gətirib. Sabiq başqan İsa Qəmbərin yenidən başqan olması üçün həm partiya strukturlarında, həm də mətbuatda müzakirə mövzusu getdikcə çözələnə-çözələnə qalıb. Artıq verilən açıqlamalardan məlum olur ki, İsa Qəmbərin hansısa formada partiya lideri kimi yenidən olması yaman çətin düyünə düşüb. Müsavat başqanı Arif Hacılı "bu, qətiyyən mümkün deyil!" iddiası ilə "baş" sındırdığını deyir. Ona cavab olaraq İ.Qəmbər də "mən artıq 5 ildir ki, bu peşmançılığın əzabını çəkirəm. Mən də 5 ildir ki, "baş" sındırıram. Bu yerə göz dikənlər, "baş" sındıranlar da bunu bilsin, öz yerimə qayıdacağım!"***

Başqanlıq uğrunda hələ çox "başlar" qan tökəcək, yox, daha doğrusu, başqan olmaq üçün baş qan tökən olmaq lazımdır.

Göründüyü kimi, Müsavatın qurultayına kimi, qarşıdurmalarda da qan tökənlər çox olacaq. Ancaq elə baş olacaq ki, qan töksün? İnanmıram! O qeyrəti görmürəm. Müsavatda 23 il başqanlıq edən İ.Qəmbər bir illik hakimiyyətləri dövründə günahsızların qanına əllərini bulaşdıranlarda nə qeyrət, nə əxlaq, nə mənəviyyat. Bunlar, o əxlaqsızlardır ki, öz şəxsi mənafeləri üçün bütün mənəviyyatlarını satırlar.

Okeanın o tayından eks-spiker R.Quliyev İ.Qəmbərin bu iddiasına gülərək bildirib ki, "İsa bəyin bu dəfə də bizi xeyli feyziyab edəcəyinə inanıram. İsa Qəmbər yenə də artistlik edəcək. O, bütün hiyləgərliyi ilə rola girməyi bacarır. Eyni oyunu oynamaqda adətkardır. Bir də bu "badbaxt"ın geriyə yolu var ki? İsa Qəmbər hər zaman uduzub, uduzacaq da! Qurultaydan sonra İ.Qəmbərin heç bir nüfuzu olmayacaq. Belə olan halda, hansı seçkidən danışmaq istəyir. Sənin kitabın bağlandı, get sonrakı rolunu oyna".

Bax, elə mən də deyirəm, get sakitcə rolunu oyna. Yoxsa qurcalandıqca, paxırların hələ çox açılacaq. Və qanun qarşısında gec-tez cavab verəcəksiniz, o zaman başqanlıq yolunda baş sındırmağa belə "başınızı" sındıra da bilməyəcəksiniz.

# Azərbaycanda Müvəkkilliyin mənzil və mülkiyyət hüququnun müdafiəsində rolu

***Mənzil hüququ ilə bağlı 328 müraciət daxil olmuşdur. Həmin müraciətlərdə, əsasən, mənzillə təminat, yerli icra hakimiyyətləri tərəfindən fərdi mənzil tikintisi ilə bağlı müraciətlərə cavab verilməməsi, bundan əsassız imtina və süründürməçiliyə yol verilməsi, mənzil növbəsinə götürülmə və ya mənzil növbəsinin bərpası, qəzalı vəziyyətdə olan mənzilin əvəzinə, yeni mənzil verilməsi, təbii fəlakətin vurduğu ziyanın aradan qaldırılmasına yardım edilməsi, fərdi ev tikintisi üçün torpaq sahəsinin verilməsi, evin təmirinə yardım olunması, qonşuluqda aparılan tikinti işləri ilə bağlı mənzillərə dəymiş ziyanın aradan qaldırılmasına köməklik edilməsi kimi hallar öz əksini tapmışdır.***

Bir sıra müraciətlərdə vətəndaşların tikinti şirkətləri tərəfindən aldadılaraq, pullarının mənimsənilməsi, yeni tikililərdə təklif edilmiş mənzillərin eyni vaxtda bir neçə şəxsə satılması, onlara qarşı dələduzluq edilməsi, hətta belə şəxslərəqarşıbaşlanılmışcinayəttəqibininheçbir nəticəvermədiyi, mənimsənilmiş vəsaitin qaytarılmaması kimi hallar öz əksini tapmışdır.

Qeyd olunanlarla yanaşı, həm real vəziyyət, həm də müraciətlərin təhlili göstərirki, əhalinin mənzillə təminatı sahəsində, hələ də, problemlər qalmaqdadır.

Əlverişli üsullardan biri kimi ipoteka kreditlərinin verilməsi səmərəli vasitə kimi əhalinin geniş təbəqələri üçün əlçatan olmalıdır. Lakin bu kreditlərin verilməsində yaranan fasilələr, Milli İpoteka Fonduna ayrılan vəsaitin vətəndaşların tələbini ödəmək səviyyəsində olmaması, vətəndaşlara verilən güzəştli ipoteka kreditinin maksimal məbləğinin mənzil bazarının real tələbini ödəməməsi, ilkin məbləğin yüksəkolması, faiz dərəcəsinin reallığı əks etdirməməsi, nəinki aztəminatlı ailələrin, hətta ödəmə qabiliyyətinə malik vətəndaşların da mənzilə olan ehtiyaclarının yetərincə həllinə imkan vermir, gənc və aztəminatlı ailələrin mənzilə və yaşayış evlərinə artan tələbatı, hələ də tam ödənilmir. Odur ki, krediti almaq imkanları asanlaşdırılmalı, ipoteka kreditləşməsi sistemi təkmilləşdirilməli və bu istiqamətdə işlər sürətləndirilməlidir. Bu kreditin verilməsinin regionlarda da geniş tətbiqi əhalinin bölgələrdə dayanıqlığını və məskunlaşması prosesini daha da möhkəmləndirər.

Sosial mənzil fondunun yaradılması da aztəminatlı ailələrin mənzil probleminin tədricən həllinə, əmlak bazarında qiymətlərin tənzimlənməsinə, ehtiyaclı qrupların mənzil əldə etmə imkanlarının artmasına imkan yarada bilər.

Müvəkkilin əvvəlki illik məruzələrində və səlahiyyətli dövlət qurumlarına göndərdiyi müraciətlərində öz əksini tapmış, habelə, davam etməkdə olan problemlərdən biri də istər əvvəllər, istərsə də son illərdə müvafiq əraziyə öz səlahiyyətləri çərçivəsində cavabdeh olan mənzil-istismar sahələri rəislərinin, polis orqanlarının, yerli icra hakimiyyətlərinin və bələdiyyələrin qeyri-rəsmi razılığı ilə inşa edilən “qanunsuz tikili”lərdir.

Mülki Məcəllənin 1100-cü maddəsində göstərilmişdir ki, “Dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və ya bu orqanların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri (hərəkətsizliyi) nəticəsində, o cümlədən, dövlət orqanının və ya yerli özünüidarə orqanının qanuna və ya digər hüquqi akta uyğun gəlməyən aktının qəbul edilməsi nəticəsində, fiziki və ya hüquqi şəxsə vurulmuş zərərin əvəzini Azərbaycan Respublikası və ya müvafiq bələdiyyə ödəməlidir.” Göründüyü kimi, qanun vəzifəli şəxslərin günahı səbəbindən fiziki və ya hüquqi şəxsə vurulmuş zərərin ödənilməsini dövlətin və ya bələdiyyənin üzərinə qoyur ki, bu da bəzi vəzifəli şəxslər tərəfindən sui-istifadə hallarına yol açır. Odur ki, məcəllənin həmin maddəsindəki “Azərbaycan Respublikası” və ya müvafiq “bələdiyyə” sözlərinin “müvafiq dövlət orqanlarının yerli özünüidarə orqanlarının və ya bu orqanların vəzifəli şəxsləri” sözləri ilə əvəz edilməsi məqsədəmüvafiqdir.

Bələdiyyələrin fəaliyyətə başladığı vaxtdan etibarən, fərdi ev tikintisi üçün verilmiş torpaq sahələrində tikilmiş evlərin inventarlaşdırılması zəruridir. Məsələnin həlli bu problemin yaratdığı çətinliklərdən əziyyət çəkən minlərlə vətəndaşın narahatlığına son qoymaqla yanaşı, onların bir sıra hüquqlarının səmərəli təmin edilməsinə imkan verəcəkdir.

Şəhərsalma və Tikinti Məcəlləsi rəhbər tutularıq, hələ də hazırlanma prosesində olan şəhərlərin baş planları əsasında rayon (şəhər) icra hakimiyyətləri tərəfindən əvvəlcə qeyri-qanuni tikilmiş bina və qurğuların inventarizasiyası aparılmalı, sonra isə şəhərlərin (qəsəbələrin) ayrı-ayrı hissələrinin müfəssəl planları hazırlanmalıdır. Baş və müfəssəl planlaşdırma layihələri isə Əmlak Məsələləri Dövlət Komitəsinin və yerli icra hakimiyyəti orqanlarının məlumatları əsasında hazırlanır.

Bəzi şikayətlərdə vətəndaşlar onlara məxsus torpaq sahələrində, həmin məcəllənin müvafiq maddəsinə uyğun olaraq, məlumatlandırma icraatı qaydasında fərdi evin tikilməsi üçün yerli icra hakimiyyətlərinə göndərdikləri müvafiq sənədlərə həmin icra hakimiyyətləri tərəfindən baxılmalı və irad olduqda, bildirilməli olduğu halda, əksər hallarda, bu sənədlərə heç bir münasibət bildirilməmiş və ya mənfi cavab verilmişdir.

Nazirlər Kabinetinin müvafiq qərarları ilə “Müfəssəl planların hazırlanması, razılaşdırılması və təsdiq olunması qaydaları, habelə, həmin planların razılaşdırıldığı orqanların siyahısı”. “Müfəssəl plan olmadığı və ya onun müddəti bitdiyi hallarda, tikitiyə icazə verilməsi və ya məlumatlandırma icraatı məqsədləri üçün tikinti layihələrinin onların həyata keçiriləcəkləri ərazinin planlaşdırılması sənədlərinə (baş planlara və (və ya) ümumi planlara), habelə, müfəssəl planın hazırlanması zamanı nəzərə alınan tələblərə uyğunluğunun müəyyənləşdirilməsi Qaydaları” və s. təsdiq edilmişdir.

Müvəkkilin əvvəlki illik məruzələrində və bundan əvvəl səlahiyyətli dövlət qurumlarına müraciətlərində Hövsan, Binə və Ramana südçülük sovxozlarında, habelə, Bakı şəhərinin “Alatava”, “Zığ”, “Vorovski”, “Xutor”, “NZS”, “UPD”, “Keşlə”, “Yasamal” və “Yeni Yasamal”, habelə, başqa yaşayış massivlərində yerləşən, lakin dövlət qeydiyyatına alınmamış evlərdə yaşayan on minlərlə vətəndaşın bir çox hüquqlardan tam şəkildə istifadə etmək imkanlarının məhdudlaşdığı öz əksini tapmışdır. Müvəkkil bir daha həmin evlərin texniki inventarlaşdırılması və bu tikililər üzərində hüquqların qeydiyyatı probleminin həlli məqsədilə hüquqi mexanizmin hazırlanmasını, həmçinin, belə tikintilərin davam etdirilməsinin qarşısının alınmasını zəruri hesab edir.

Köhnə və qəzalı mənzillərdə yaşayan vətəndaşların yeni məzillərə köçürülməsi məsələsinin həlli məqsədilə müvafiq Dövlət Proqramının hazırlanmasına və həyata keçirilməsinə böyük ehtiyac vardır. Ölkəmizin ayrı-ayrı regionlarında müxtəlif vaxtlarda baş vermiş təbii fəlakət zamanı dəymiş ziyanın aradan qaldırılması istiqamətində dövlətimiz tərəfindən həyata keçirilmiş tədbirlər davam etdirilməlidir. Müvəkkilin aidiyyəti üzrə müraciətləri nəticəsində, təbii fəlakətlərdən ziyan çəkmiş bir sıra evlərə yerli Fövqəladə Hallar Komissiyası tərəfindən baxış keçirilmiş və Fövqəladə Hallar Nazirliyinin İşçi Qrupunun baxışına təqdim olunmuş, yararsız vəziyyətə düşmüş bəzi evlər üzrə bərpa rəyi verilmiş və ya bərpa-gücləndirməyə ehtiyacı olan evlər siyahısına daxil edilmişdir.

2015-ci il mayın 19-da Binəqədi rayonunda yerləşən çoxmərtəbəli yaşayış binasında baş vermiş yanğın nəticəsində, bir neçə insan həlak olmuş və yaralanmışdı. Ölkə Prezidenti şəxsən hadisə yerində olmuş, binaya baxış zamanı hadisənin səbəblərinin araşdırılması və nəticələrinin aradan qaldırılması ilə bağlı təxirəsalınmaz tədbirlərin görülməsi, zərər çəkənlərə və həlak olanların ailə üzvlərinə yardımların göstərilməsi və digər məsələlərlə bağlı Dövlət Komissiyasının üzvlərinə tapşırıqlarını vermişdir. Nəticədə, bina qısa müddətdə tam təmir edilərək, sakinlərin ora geri köçürülməsi təmin edilmişdir.

Müvəkkil də baş vermiş faciə nəticəsində, zərərçəkmiş şəxslərin müvəqqəti yaşadıqları yerlərdə, habelə, yaralıların yerləşdirildiyi xəstəxanalarda yeralanlara baş çəkmiş, onların vəziyyətini və ehtiyaclarını diqqətdə saxlamış, təklif və müraciətlərini səlahiyyətli qurumlara çatdırmışdır.

Bu hüququn pozulması ilə bağlı 1996 müraciət daxil olmuşdur. Həmin müraciətlərdə, əsasən, mülkiyyətdə olan əmlakın (evin, tikilinin) müvafiq məhkəmə qərarı olmadan yerli icra hakimiyyəti orqanı tərəfindən sökülməsi, xüsusi mülkiyyətdə plan torpaq sahəsinin ictimai ehtiyaclar üçün geri alınması və əvəzinin ödənilməməsi və ya əvəzində, uyğun kompensasiyanın verilməməsi, vətəndaşa məxsus evin, mənzilin, torpağın sənədləşdirilməsi zamanı Əmlak Məsələləri Dövlət Komitəsi yanında Dövlət Reyestr Xidmətinin ərazi idarələri və rayon (şəhər) şöbələri tərəfindən süründürməçiliyə yol verilməsi kimi hallar öz əksini tapmışdır.

Müvafiq sahədə olan və minlərlə insanı narahat edən, ən ciddi problemlərdən biri kimi, Müvəkkil vətəndaşlar tərəfindən müxtəlif vaxtlarda, o cümlədən, bələdiyyələrin fəaliyyətə başladığı vaxta kimi fərdi ev tikintisi üçün verilmiş torpaq sahələrində tikilmiş evlərin inventarlaşdırılmasını və dövlət qeydiyyatına alınmasını təklif etmişdir. Bu baxımdan, ölkə Prezidentinin 2015-ci il 13 yanvar tarixli Fərmanı ilə “Daşınmaz Əmlakın Dövlət Reyestri haqqında” “Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı”nın təsdiq edilməsi əhəmiyyətlidir.

2015-ci ilin fevral və dekabr aylarında milli valyuta olan “manat”ın dönərliliyinin zəifləməsi nəticəsində, banklardan ABŞ dolları ilə kredit götürmüş və ödənişə imkanı omayan vətəndaşlar tərəfindən ünvanlanmış şikayətlər xüsusi narahatlıq doğurmuşdur.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 19 sentyabr


## BMT: Dünyada miqrantların sayı 272 milyon nəfərə çatıb!

Dünyanın bütün regionlarında əhali artımı ilə müqayisədə miqrantların sayının daha sürətlə artması davam edir. Hazırda beynəlxalq miqrantların sayı 272 milyon nəfərə çatıb. Bu, dünya əhalisinin 3,5 faizi deməkdir. BMT-nin məruzəsində deyilir ki, 2019-cu ildə beynəlxalq miqrantların sayı 272 milyon nəfərə çatıb, bu isə 2010-cu ilin müvafiq göstəricisi ilə müqayisədə 51 milyon nəfər çoxdur.



BMT-nin son hesablamalarına görə, hazırda beynəlxalq miqrantların sayı dünya əhalisinin sayının 3,5 faizinə bərabərdir. Müqayisə üçün bildirək ki, 2000-ci ildə bu nisbət 2,8 faiz idi. 2019-cu ildə beynəlxalq miqrantların çoxu (82 milyon) Avropanın payına düşür. Sonrakı yerləri Şimali Amerika (59 milyon), Şimali Afrika və Qərbi Asiya (49 faiz) tutur. Ölkələr səviyyəsində bütün beynəlxalq miqrantların təqribən yarısı cəmi 10 ölkədə yaşayır. Bu halda beynəlxalq miqrantların 19 faizini (51 milyon) Amerika Birləşmiş Ştatları qəbul edir.

## Əncir-Arıqlamaq istəyənlər üçün ən ideal desert!



Əncir eramızdan əvvəl becərilən qiymətli bitkidir. Ən qədim mədəni bitki hesab edilən əncir ağacını XVI əsrin axırlarından tanımağa başlayıblar. Əncirin həm təzə meyvəsi, həm də qurusu müalicəvi əhəmiyyət daşıyır. Onun tərkibi A, B1, B2, C vitaminləri və minerallarla zəngindir.

AZƏRTAC xəbər verir ki, Abşeron yarımadasında becərilən əncirin "Sarı sabahi" və ya "Sarı əncir" növləri xüsusilə məşhurdur. Onun xoş ətri, şirin dadı, nazik qabıqlı və sarı rəngli meyvələri var. Qara əncirin irisi, sarı əncirin xırdası daha keyfiyyətlidir.

Əncir orqanizmə qida vasitəsilə daxil olan şəkərin piyə çevrilməsinə mane olur. Əncir kifayət qədər kalorilidir. Təzə əncirin 100 qramında 63, quru əncirin 100 qramında 284 kalori enerji var. Tərkibində külli miqdarda lif olduğuna görə az kalorili pəhrizlərdə ondan istifadə əlverişlidir. Quru əncirin tərkibində 2 qram lif var və bu, gündəlik lif ehtiyacının 20 faizini təşkil edir. Əncir arıqlamaq istəyənlər üçün ideal desert sayılır. Əncirdə hər iki - həm həll olunan, həm də həll olunmayan lif növünün birgə olması meyvəni çox əhəmiyyətli qidaya çevirir.

Əncirdəki aktioksidantlar orqanizmdə kimyəvi reaksiyalar nəticəsində yaranan və ya kənardan qəbul edilən zərərli maddələri təsirsiz hala gətirir və hüceyrənin məhv olunmasının qarşısını alır. Əncirdə fenolun miqdarı başqa meyvələrlə müqayisədə daha çoxdur və mikroorqanizmlərə öldürücü təsir göstərir.

Tərkibində kalsiumun çoxluğuna görə əncir portağaldan sonra ikinci meyvə sayılır. Bir kasa quru əncir bir kasa südlə eyni miqdarda kalsium saxlayır. Onu uzunmüddətli xəstəlikdən sonra sürətlə sağalmağa yardımçı olan, güc və qüvvə verən bir dərman kimi də dəyərləndirirlər.

Asqırma, öskürək və soyuqdəymə zamanı süddə bişirilmiş əncirin öskürək əleyhinə, tərqovucu və qızdırmasalıcı vasitə kimi qəbul edilməsi tövsiyə olunur. Tərkibində dəmir maddəsi alma meyvəsində olandan daha çoxdur və ona görə də dəmirdefisitli anemiyalarda geniş istifadə edilir.

Kaliumun miqdarına görə badamdan sonrakı yeri tutan əncir həmin xüsusiyyətinə əsasən ürək döyüntülərinin artması və döş qəfəsində ağrılar zamanı istifadə olunur. Əncirin tərkibində olan maddələr qandurulaşdırıcı təsir göstərir, damarlarda qanın tromblaşmasının qarşısını alır.

## Mariya Stadnik ikinci dəfə dünya çempionu oldu!




Azərbaycan güləşçisi Mariya Stadnik (50 kq) Qazaxıstanın paytaxtı Nur-Sultanda keçirilən dünya çempionatının finalında qalib gələrək qızıl medala sahib olub. Güləşçimiz finalda Rumıniya təmsilçisi Emiliya Alina Vuka 13:0 hesabı ilə qalib gələrək on illik fasilədən sonra ikinci dəfə dünya çempionu adını qazanıb. Xatırladaq ki, çempionata onaltıdabir finaldan başlayan Mariya Stadnik (50 kq) Nigeriya təmsilçisi Miessiney Mersi Genesisi, səkkizdəbir finalda hindistanlı Seemu Seemunu məğlub edib. Dörddəbir finalda Rusiya idmançısı Yekaterina Poleşuka qalib gələn idmançımız yarımfinala yüksəlməklə "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziyanı təmin edib. Güləşçimiz yarımfinalda çinli Yanan Sunu 6:4 hesabı ilə məğlub edərək adını finala yazdırıb. M.Stadnik çempionatın yarımfinalına yüksəlməklə Tokio Olimpiadasına vəsiqəni təmin etmişdi. Çempionatda yunan-Roma güləşçilərimizdən Rafiq Hüseynov (82 kiloqram) gümüş, Eldəniz Əzizli (55 kiloqram) isə bürünc medal qazanıblar.

Qeyd edək ki, dünya çempionatında 100-dən çox ölkədən 900 güləşçi 30 dəst medal uğrunda mübarizə aparır. "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan çempionatda güləşçilər 108 Olimpiya vəsiqəsi uğrunda yarışırlar.

## Ronaldu: "Messi fantastik oyunçudur"




Portuqaliyalı futbolçu Ronaldu amerikalı jurnalist Kris Morqana verdiyi müsahibəsində bildirib ki, Lionel Messi indiyə qədər onun rəqibi olmuş oyunçuların ən yaxşısıdır. Ronaldu deyib: "Messi fantastik oyunçudur. UEFA tədbirində mən onunla söhbətə başlayanda çoxları heyrətlənmişdi. Bəli, biz dost deyilik, amma yaxşı münasibətlərimiz var. Rəqabət bizi daha da yaxşılaşdırır".

Ronaldu Portuqaliyanın Madeyra adasında anadan olub, amma futbolçu karyerasına Lissabonun "Sportinq" komandasında başlayıb. O, beş dəfə "Qızıl top" mükafatına layiq görülüb, beş dəfə Çempionlar Liqasının qalibi, İngiltərə, İspaniya və İtaliya çempionu olub. Hücumçu 2016-cı ildə Portuqaliya yığmasının heyətində Avropa birinciliyində qalib gəlib.

## Mariya Stadnik: "Olimpiya medalı məni gözləyir"



"Çətin qələbə oldu. Mən bura gəlmək üçün xeyli məsafə qət eləmişəm". Qol.az xəbər verir ki, bu sözləri Qazaxıtanın paytaxtı Nur-Sultanda keçirilən güleş üzrə dünya çempionatında qızıl medal qazanan idmançımız Mariya Stadinik deyib.

Sərbəst güləşçimiz bu gün rumıniyalı Emilia Alina Vuç üzərində qələbədən dərhal sonra jurnalistlərə açıqlamasında bundan sonrakı hədəfinin Yay Olimpiya Oyunlarının qalibi olmaq olduğunu deyib.

"Bu qələbəni öz məşqçim - dünyanın ən yaxşı məşqçisi olan Andrey Stadnikə həsr edirəm. Bu, onun zəhmətidir. Dünyanın ən güclü yarışında güclü idmançıları udmaq gözəl hisslərdir". Stadnik deyib ki, bundan sonra gələn il Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarına hazırlaşacaq: "Mənu orada olimpiya medalı gözləyir. Bunun üzərində işləyəcəyik. Medal orada durub və gözləyir. Bu mundialda rəqiblərin kimliyi önəmli deyildi, məqsədim qələbə qazanmaq idi".

## "Liverpul" və "Çelsi" uduzdu, "Barselona" "Borussiya" ilə heç-heçə etdi



Futbol üzrə UEFA Çempionlar Liqasında qrup mərhələsinə start verilib. İlk oyun günündə E, F, G və H qruplarında 8 görüş keçirilib. Turnirin son qalibi "Liverpul" İtaliya səfərində "Napoli" ilə qarşılaşıb və 0:2 hesabı ilə uduzub. Dortmund "Borussiya"sı evdə "Barselona"nı qəbul edib. Matç qolsuz bərabərliklə başa çatıb. "Çelsi" isə doğma meydanda "Valensiya"ya uduzub - 0:1.

### ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix-coğrafiya ixtisası üzrə TCİ-15-ci qrup tələbəsi Məmmədli Səlim Zöhrab oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**